RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 195 (8788) ÇƏRŞƏNBƏ AXŞAMI, 14 sentyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Frederik Starın “Dostluq” ordeni ilə təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında siyasi və elmi əlaqələrin inkişafında xüsusi xidmətlərinə görə Frederik Star “Dostluq” ordeni ilə təltif edilsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 13 sentyabr 2021-ci il*

## Ağstafa və Qazax rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

**Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağstafa və Qazax rayonlarının əhalisi 49420 nəfər olan 14 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 16 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 1,12 milyon (bir milyon bir yüz iyirmi min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 13 sentyabr 2021-ci il*

## Şuşalıların işğaldan azad olunmuş doğma yurdlarına növbəti səfəri təşkil edilib

Sentyabrın 12-də şuşalıların işğaldan azad olunmuş dədə-baba torpaqlarına növbəti səfəri təşkil edilib.

AZƏRTAC xəbər verir ki, Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin birgə təşkilatçılığı ilə reallaşan səfər çərçivəsində 130 şuşalı doğma şəhərlərinə gəliblər.

*Ardı 6-cı səh.*

## Ağdam tezliklə regionun ən müasir şəhərinə çevriləcək

Sentyabrın 12-də Ağdam sakinlərinin işğaldan azad olunmuş Ağdam şəhərinə növbəti səfəri təşkil edilib.

Ağdam şəhəri daxil olmaqla Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi tərəfindən təşkil olunan səfər zamanı ağdamlılar doğma şəhərlərinə uzun illərdən sonra yenidən ayaq basıblar.

*Ardı 6-cı səh.*

## Ötən həftə 293 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan əməliyyatlar barədə həftəlik məlumatı açıqlayıb.




ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, sentyabrın 6-dan 11-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış əməliyyat-axtarış tədbirləri zamanı piyada əleyhinə 119, tank əleyhinə 30 mina və 109 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 293 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.



# Yeni əsrin müqaviləsi

## 4 il əvvəl imzalanmış bu layihənin müəllifi İlham Əliyevdir

27 il əvvəl imzalanmış möhtəşəm kontrakt - Xəzərin Azərbaycan sektorundakı “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlarının tammiqyaslı işlənməsi və Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) sonralar “Əsrin müqaviləsi” adını almışdır. O zaman Ulu Öndər Heydər Əliyev böyük uzaqgörənliklə “Əsrin müqaviləsi”nin qarşıdakı inkişaf yolunun, nəhəng işlərin başlanğıcı olduğunu demişdi.

Zaman göstərdi ki, bu, həqiqətən də gələcək əsrlərə hesablanmış bir sazişdir. 2017-ci il sentyabrın 14-də AÇG-nin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişin imzalanması deyilənləri bir daha təsdiq etdi.

Heydər Əliyev Mərkəzində yeni sazişin imzalanması mərasimində Prezident İlham Əliyev bunun ölkəmizin həyatında çox əlamətdar və tarixi hadisə olduğunu vurğuladı. Dövlət başçısı qeyd etdi ki, yeni kontrakt Azərbaycan üçün daha da əlverişlidir. Baxmayaraq ki, 1994-cü ildə imzalanmış kontrakt da bizim maraqlarımızı tam təmin edirdi. Bu dəfə isə daha da yaxşı şərtlərlə kontrakt imzalanır.

“Yeni əsrin müqaviləsi” adlandırılan bu sazişn imzalanması Azərbaycanın neft strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinin və getdikcə inkişafının daha bir aydın nümunəsi idi. İlham Əliyev bu layihə ilə Azərbaycanın neft tarixində yeni mərhələnin əsasını qoydu. Bu, eyni zamanda ölkənin iqtisadi gücünün çoxalması, yeni investisiya qoyuluşları, ümumi daxili məhsulun artması, yeni iş yerlərinin açılması və əhalinin sosial rifahının daha da yaxşılaşdırılması deməkdir.

1994-cü ildə AÇG-nin tammiqyaslı işlənməsi üçün saziş 30 il müddətinə imzalanmışdı. Dəyişdirilmiş və yenidən işlənmiş sazişin imzalanması vaxtilə başlanan nəhəng işlərə mane olmaq istəyənlərə - xaricdəki əleyhdarlarımıza və daxildə aranı qarışdıran, “sapı özümüzdən olan baltalara” tutarlı cavabdır. Onlar “Azərbaycanda neft yoxdur, olmayacaq” deyirdilər. Gələcəkdə nefti nəql edəcək infrastrukturun qurulmasına hər vəchlə mane olmağa can atırdılar. Azərbaycanda neft olub və var! Yeni müqavilə isə göstərdi ki, hələ bundan sonra da olacaq!

Xəzərin ölkəmizə məxsus sektorunda, sahildən təxminən 120 kilometr şərqdə yerləşən AÇG yataqları dünyanın ən zəngin neft mənbələrindəndir. “Çıraq”dan artıq 24 ildir neft hasil olunur. 2005-ci ildən “Azəri” yatağı da neft verməyə başlayıb. Xatırladaq ki, “Azəri”nin özü üç hissədən - “Mərkəzi Azəri”, “Qərbi Azəri” və “Şərqi Azəri” yataqlarından ibarətdir. Bu da təbiətin Azərbaycana səxavətlə bəxş etdiyi bir sərvətdir. “Günəşli”nin dayaz hissəsi sovet dönəmindən Azərbaycan neftçiləri tərəfindən istismar olunur. Dərinsulu hissəsi isə “Əsrin müqaviləsi”nin tərkibində işlənir.

AÇG yataqlar blokunun işlənməsi layihəsinin reallaşdırılması çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Fondu ( ARDNF) cari ilin yanvar-avqust aylarında 3 milyard 488,5 milyon dollar gəlir əldə edib. İndiyədək, yeni 2001-ci ildən etibarən layihə üzrə gəlir 152 milyard 893 milyon dollar olub. 2020-ci ildə bu yataqların gəliri 3 milyard 522,7 milyon dollar təşkil edib.

*Ardı 4-cü səh.*

# “Üç qardaş 2021”



## Beynəlxalq təlimin açılışına həsr olunan təntənəli mərasim keçirilib

Sentyabrın 12-də Bakıda Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə “Üç qardaş-2021” beynəlxalq təliminin açılışına həsr olunan təntənəli mərasim keçirilib.

*Ardı 3-cü səh.*

## Digər ölkələrə aid nəqliyyat vasitələrinin Azərbaycan ərazilərinə qanunsuz keçməsi ilə bağlı Rusiya MN-ə və Sülhməramlı qüvvələrin komandanlığına məktublar ünvanlanıb

Digər ölkələrə aid nəqliyyat vasitələrinin Rusiya Federasiyası sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan Respublikası ərazilərinə qanunsuz keçməsi ilə bağlı Müdafiə Nazirliyi tərəfindən Rusiya Federasiyası Müdafiə Nazirliyi və Sülhməramlı qüvvələrin komandanlığına məktublar ünvanlanıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məktublarda qeyd edilib ki, bu kimi hallar Azərbaycan Respublikası və Rusiya Federasiyası prezidentlərinin, Ermənistan baş nazirinin 2020-ci il noyabrın 10-da imzaladığı üçtərəfli Bəyanata ziddir və onların qarşısının alınması xahiş olunub.

Azərbaycan Respublikasının razılığı olmadan digər ölkələrin hüquqi və fiziki şəxsləri və onlara aid nəqliyyat vasitələri Azərbaycan ərazisinə daxil ola bilməz və bu kimi hallar ölkəmizin qanunlarının pozulmasıdır.

## Pandemiyadan ziyan görmüş şirkətlərə dəstək verilir

Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu tərəfindən pandemiyadan zərər çəkmiş sahibkarlıq subyektlərinin kredit təşkilatlarından, o cümlədən ləğv prosesində olan kredit təşkilatlarından manatla aldıqları kreditlər, həmçinin müəyyən sahələrə (ərzaq) alınacaq kreditlərə 12 ay müddətində hesablanmış faizlər üzrə subsidiya verilir.

AZƏRTAC xəbər verir ki, bununla bağlı Nazirlər Kabinetinin “Koronavirus (COVID-19) pandemiyasının ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması üçün sahibkarlıq subyektlərinin kreditlərinə dövlət dəstəyinin verilməsi ilə bağlı bir sıra tədbirlər barədə” Qərarında dəyişiklik edilib.

Bildirilib ki, faiz subsidiyası sahibkarlıq subyektinə verilmiş kreditlər üzrə 2020-ci ilin mart ayından başlayaraq 12 (on iki) aydan çox olmayan müddətdə ödənilmiş və ya ödənilməmiş faizlər üzrə verilir.

Həmin müddətlər ərzaqlıq buğda təchizatçılarına münasibətdə daha 12 ay uzadılaraq 24 ay müəyyən edilib.

## Dövlət və cəmiyyət qəhrəman övladlarına sahib çıxır

Azərbaycanda ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin ailələrinin və müharibə əlillərinin sosial-məişət problemlərinin həlli istiqamətində tədbirlər davam edir. Bu kateqoriyadan olan ailələr mənzillə, avtomobillə, yüksək texnologiyalarla hazırlanan protezlərlə təmin edilir, onlara yüksək məbləğdə təqaüd və pensiyalar ödənilir, məşğulluq problemlərinin həllində hərtərəfli kömək göstərilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən (ƏƏSMN) verilən məlumatda bildirilir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən postmüharibə dövründə adıçəkilən nazirlik tərəfindən şəhid ailələri, qazilər, erməni terrorundan zərər çəkənlər, onların yaxınları ilə bağlı icra olunan sosial dəstək tədbirləri artıq 26 mindən çox şəxsi əhatə edir. O cümlədən bu tədbirlər çərçivəsində şəhid ailələri və müharibə əlillərindən ibarət 9100 nəfərə 18400 sosial ödəniş təyin olunub, 7 mindən çox şəxsə sosial-psixoloji və reabilitasya yönümlü 10 min xidmət göstərilib, 140 hərbçi yüksək texnologiyalı müasir protezlə, 1200-ə yaxın müharibə əlili 8800-dən çox reabilitasiya vasitəsi ilə təmin edilib.

*Ardı 4-cü səh.*

## Böyük zəfərin tarixi zəmini

### Şuşa Bəyannaməsi zirvəsindən Qars müqaviləsinə baxış

2021-ci il iyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyəti Prezidenti Rəcəb Tayyib Ərdoğanın imzaladıqları Şuşa Bəyannaməsində iki dost və qardaş ölkə 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq etdilər. Şuşa Bəyannaməsi tarixi varisliyi göstərməklə Qars müqaviləsinin həyatiliyini bir daha təmin etdi.

Rusiyanın vasitəçiliyi ilə Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan arasında Qarsda imzalanmış müqavilənin 100 illiyi bu il tamam olur. İmzasının olmasına baxmayaraq, Ermənistanda və xarici ölkələrdə Qars müqaviləsinə qarşı çıxan və onu dəyişdirmək istəyən erməni qrupları hələ də fəaliyyət göstərirlər. Uydurma erməni iddialarının əsassızlığını və cəfəngiyyat olmasını bir daha sübut etməkdən ötrü bəzi suallara cavab vermək lazımdır: Qars konfransında Türkiyənin Azərbaycan, Gürcüstan və Ermənistan ilə arasında ərazi-sərhəd məsələlərinin müzakirəsi necə keçirilib? Müqavilənin imzalanmasına münasibət necə olub? Ratifikasiya prosesi necə icra edilib və Azərbaycan hansı rolu oynayıb?

Məqalədə yalnız ərazi-sərhəd məsələlərinə dair suallara Azərbaycan, Türkiyə, Rusiya və Gürcüstan arxivlərinin ən mötəbər mənbələri əsasında cavab verilir.

*Ardı 5-ci səh.*

# Azərbaycan və Qazaxıstan parlamentləri arasındakı münasibətlər müzakirə olunub

Sentyabrın 13-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Qazaxıstan Parlamenti Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri Aygul Kuspanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qonaqları səmimiyyətlə salamlayan S.Qafarova dost və qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən razılığını bildirib. Xalqlarımız arasında çox qədim tarixə malik münasibətlərin dövlətlərimiz müstəqillik qazandıqdan sonra Ulu Öndər Heydər Əliyev və Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayev tərəfindən uğurla inkişaf etdirildiyini vurğulayan Sahibə Qafarova bildirib ki, bu siyasət hazırda Azərbaycanın və Qazaxıstanın dövlət başçıları tərəfindən ardıcıllıqla davam etdirilir.

İki ölkənin qanunverici orqanları arasında əlaqələr haqqında məlumat verən Milli Məclisin Sədri vurğulayıb ki, ikitərəfli münasibətlərimiz parlamentlər səviyyəsində də yüksələn xətlə inkişaf edir. Hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qrupları mövcuddur və deputatlarımızın qarşılıqlı səfərləri, nüfuzlu beynəlxalq parlament təşkilatlarında mütəmadi görüşlərin keçirilməsi ikitərəfli əlaqələrin inkişafına töhfə verir. Milli Məclisin sədri TÜRKPA çərçivəsində əməkdaşlığı xüsusi qeyd edib.

Sonra Sahibə Qafarova qonaqlara Azərbaycanın ötən il 44 günlük Vətən müharibəsində əldə etdiyi Zəfər və regionda yeni yaranmış şərait haqqında geniş məlumat verib. O deyib ki, 2020-ci ildə Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan torpaqlarımızı azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa edib. Bununla Azərbaycan həm də BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini öz gücü hesabına yerinə yetirib. Qarabağ münaqişəsinin artıq tarixə çevrildiyini bildirən Milli Məclisin Sədri deyib ki, hazırda Azərbaycan azad olunmuş əraziləri bərpa edir, yenidən qurur. Sahibə Qafarova həmçinin xatırladıb ki, Ermənistan işğal altında saxladığı şəhər və rayonlarımızı, kəndlərimizi, xalqımıza məxsus tarixi, mədəni abidələri, məscidləri vəhşicəsinə dağıdıb. O, Qazaxıstan nümayəndə heyətinin Şuşa və Füzuli rayonlarına səfər etdiyini, Ermənistan tərəfindən törədilən vandalizmi öz gözləri ilə gördüyünü bildirib.

Qazaxıstan Parlamenti Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri Aygul Kuspan səmimi qəbul və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirərək xalqlarımız və dövlətlərimiz arasında münasibətlərin hazırkı səviyyəsinin məmnunluq doğurduğunu söyləyib. O deyib ki, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlığımız inkişaf edir. Aygul Kuspan xalqlarımız arasındakı əlaqələrin hazırda iki ölkənin dövlət başçıları tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Qazaxıstan Parlamenti Məclisinin komitə sədri qanunvericilik orqanları arasında münasibətlərə də toxunaraq dostluq qruplarının uğurlu fəaliyyətini təqdir edib.

Aygul Kuspan Azərbaycanın Vətən müharibəsində əldə etdiyi Zəfər münasibətilə təbriklərini çatdıraraq işğaldan azad olunmuş Şuşa və Füzuliyə səfərləri və orada gördükləri haqqında təəssüratlarını söyləyib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Qazaxıstan parlamentinin nümayəndə heyəti Şuşa və Füzuli şəhərlərində olub








Ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikası Parlamenti Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri Aygul Kuspanın başçılıq etdiyi parlament nümayəndə heyəti sentyabrın 12-də Şuşa və Füzuli şəhərlərində olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətini Milli Məclis Sədrinin müavini, Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Adil Əliyev və Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov müşayiət ediblər.

Şuşada qonaqlar Qala divarları, Molla Pənah Vaqifin məqbərəsi, Yuxarı Gövhər ağa məscidi ilə tanış olub, Bülbülün ev muzeyinə, Xalça muzeyinə baş çəkib, Cıdır düzündə və İsa bulağında olublar. Qonaqlara məlumat verilib ki, Şuşa şəhəri işğaldan azad olunduqdan sonra bu abidələr Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarətləri altında bərpa edilib.

Həmin gün Qazaxıstan parlament nümayəndə heyətinin üzvləri Füzuli şəhərinə gəliblər. Onlar burada yeni istifadəyə verilmiş Füzuli Hava Limanında olublar. Qonaqlara məlumat verilib ki, qısa müddətdə tikilmiş hava limanına bu günlərdə ilk sınaq uçuşları keçirilib və hava limanı həm yük, həm də sərnişin təyyarələrini qəbul etmək imkanına malikdir.

Füzuli şəhərində yeni 110/35/10 kilovoltluq yarımstansiya ilə tanışlıq zamanı qonaqlara məlumat verilib ki, yarımstansiya Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin ən qısa vaxtda elektrik enerjisi ilə təchiz edilməsinə dair tapşırığına əsasən tikilib. Bu yarımstansiya hava limanı da daxil olmaqla Füzuli şəhəri və ətraf kəndlərdə inşa olunacaq bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək.

# Səhiyyə komitəsinin iki qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub

Sentyabrın 13-də Milli Məclisin Səhiyyə komitəsinin onlayn iclası keçirilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, komitənin sədri Əhliman Əmiraslanovun apardığı iclasda ilk olaraq Milli Məclisin 2021-ci il yaz və növbədənkənar sessiyaları dövründə Səhiyyə komitəsində görülən işlər barədə hesabat müzakirə olunub. Komitə sədri bildirib ki, hesabat müddətində komitənin 13 iclası keçirilib, həmin iclaslarda 24 məsələyə baxılıb və oxunuşlardan keçən 12 qanun layihəsinin hamısı Milli Məclisin plenar iclasında qəbul edilib.

Hesabat dövründə komitəyə daxil olan 150-yə yaxın ərizə və şikayət araşdırılıb, müvafiq tədbirlər görülüb. Bundan əlavə, hesabat dövründə komitədə koronavirus infeksiyası ilə bağlı ölkədəki mövcud vəziyyət, vaksinasiya və görülən digər tədbirlər barədə geniş tərkibli dinləmə keçirilib.

Gündəlikdəki ikinci məsələ olan Milli Məclisin Səhiyyə komitəsinin 2021-ci ilin payız sessiyası üçün iş planı ilə bağlı komitə sədri bildirib ki, qarşıdakı sessiyada "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsinin müzakirəsi, həmçinin "Koronavirus (COVID-19) ilə bağlı ölkədəki mövcud vəziyyət və görülən tədbirlər", "İcbari tibbi sığortanın tətbiqi ilə bağlı normativ-hüquqi aktlara dəyişikliklərin edilməsi", "Onkoloji xəstələrə tibbi yardımın vəziyyəti və perspektivləri", "Optika və optikaçılıq", "Ürək və qan dövranı çatışmazlığı xəstəlikləri" mövzularında dinləmələrin keçirilməsi nəzərdə tutulub.

Sonra komitədə birinci oxunuşda təqdim olunan iki qanun layihəsinə baxılıb. Bildirilib ki, komitənin müzakirəsinə çıxarılan "Əhalinin sağlamlığının qorunması haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi icbari tibbi sığorta ilə əhatə olunmayan və dövlət tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərinin təsdiq edilməsinin hüquqi əsasının yaradılması məqsədilə hazırlanıb. Komitə sədri qeyd edib ki, qanunun 10-cu maddəsinə edilən əlavəyə əsasən, "Tibbi sığorta haqqında" qanuna uyğun olaraq xidmətlər zərfinə daxil olmayan və dövlət tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tariflərini, habelə həmin qanuna əsasən sığortaolunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlərin tariflərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

Mülki Məcəllədə, "Müflisləşmə və iflas haqqında", "İcra haqqında", "Banklar haqqında", "Teatr və teatr fəaliyyəti haqqında", "Sığorta fəaliyyəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi isə səhiyyədə icbari tibbi sığortanın tətbiqinin maliyyə dayanıqlığının təminatı və icbari tibbi sığorta haqlarının müəyyən məsələləri ilə bağlı hazırlanıb.

İclasda Səhiyyə komitəsi sədrinin müavini Rəşad Mahmudov, komitə üzvləri Sədaqət Vəliyeva, Məlahət İbrahimqızı, İlham Məmmədov, Kamilə Əliyeva, Soltan Məmmədov çıxış edərək gündəlikdəki məsələlərlə bağlı öz fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

Deputatlar hər iki qanun layihəsini birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər.

Onlayn iclasda deputatlar Kəmaləddin Qafarov, Ülvi Quliyev, Müşfiq Məmmədli, Anatoliy Rafailov və digər rəsmi şəxslər də iştirak ediblər.

# Qarabağ Dirçəliş Fondu ilə AFFA arasında memorandum imzalanıb

Sentyabrın 13-də Bakı Olimpiya Stadionunda Qarabağ Dirçəliş Fondu (QDF) ilə Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, memorandumu AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov və QDF-nin İdarə Heyətinin sədri Rəhman Hacıyev imzalayıblar.

Anlaşma Memorandumuna əsasən, AFFA 2022-ci ildə Qətərdə keçiriləcək dünya çempionatının seçmə mərhələsi çərçivəsində Azərbaycan milli komandasının bütün ev oyunlarında bilet satışı zamanı əldə olunan gəlirin 10 (on) faizini QDF-yə ianə edəcək. Bundan başqa, AFFA tərəfindən Azərbaycan milli komandasının oyunları zamanı ictimaiyyət arasında ianəçilik mədəniyyətinin təbliğinə geniş yer veriləcək.

Memorandumun şərtlərinə uyğun olaraq, AFFA-nın dəstəyi ilə keçirilən digər peşəkar və həvəskar futbol turnirləri çərçivəsində də QDF-nin təşəbbüsləri dəstəklənəcək. Qarabağ Dirçəliş Fondu isə öz növbəsində keçirəcəyi tədbirlər zamanı AFFA-nı tərəfdaş kimi qeyd edəcək.

AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov memorandumun imzalanmasının Azərbaycan Futbol Federasiyaları Assosiasiyası üçün çox vacib və bir o qədər də qürurverici hadisə olduğunu bildirib, bu əməkdaşlığın hər iki tərəf üçün uğurlu olacağına əminliyini ifadə edib. O, işğaldan azad edilən ərazilərin bərpa və quruculuğu istiqamətində görülən işlərə hamılıqla dəstək olmağın əhəmiyyətini vurğulayıb.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev bu təşəbbüsü yüksək qiymətləndirib, bu mühüm missiyanın iştirakçısına çevrildiyinə görə AFFA-ya minnətdarlığını bildirib.

"Qarabağı birlikdə daha tez və daha gözəl bərpa edəcəyik", - deyən fondun İdarə Heyətinin sədri bütün soydaşlarımızı bu məqsəd uğrunda həmrəy olmağa dəvət edib. O bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və şanlı Ordumuzun qəhrəmanlığı nəticəsində azad etdiyimiz torpaqlarımızı indi cəmiyyətimizin iştirakı ilə bərpa etmək vaxtıdır.

# Qazaxıstan parlamentinin nümayəndə heyəti Fəxri və Şəhidlər xiyabanlarını ziyarət edib









Qazaxıstan Respublikası Parlamenti Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri xanım Aygul Kuspanın rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 13-də Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə gül qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə gül dəstələri qoyublar.

Daha sonra jurnalistlərin suallarını cavablandıran xanım Aygul Kuspan səfər proqramı çərçivəsində Qazaxıstan parlamentinin nümayəndə heyəti ilə birlikdə işğaldan azad edilmiş Şuşa şəhəri barədə təəssüratını bölüşüb. Komitə sədri Şuşada aparılan nəhəng tikinti-quruculuq işlərinin miqyasından heyrətləndiklərini bildirib. O qeyd edib ki, qısa müddətdə belə miqyasda işlərin görülməsi üçün maddi resurslardan əlavə, Vətən sevgisi lazımdır. İnanırıq ki, bu hisslər qarşıya qoyulmuş vəzifələrin həll olunması üçün başlıca impulsdur.

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 sentyabr tarixli Sərəncamına Əlavə*

# Ağstafa və Qazax rayonlarında qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Rayonun adı | Quyuların sayı, ədəd | Yaşayış məntəqələrinin adı | Əhalinin sayı, nəfər |
|---|---|---|---|---|
| 1. | Ağstafa | 6 | Aşağı Göycəli kəndi | 2547 |
| | | | Göycəli kəndi (2 quyu) | 2774 |
| | | | Köhnəqışlaq kəndi | 698 |
| | | | Tatlı kəndi (2 quyu) | 2741 |
| 2. | Qazax | 10 | Ağköynək kəndi | 3815 |
| | | | Aslanbəyli kəndi | 4323 |
| | | | Aşağı Salahlı kəndi | 1971 |
| | | | Bala Çaylı kəndi | 1240 |
| | | | Cəfərli kəndi | 1268 |
| | | | Çaylı kəndi | 8069 |
| | | | Daş Salahlı kəndi | 10823 |
| | | | Xanlıqlar kəndi | 3705 |
| | | | Kəmərli kəndi | 3221 |
| | | | Qaymaqlı kəndi | 2225 |
| Cəmi: | | 16 | 14 | 49 420 |

## Azərbaycan Ordusunun Baş Qərargah rəisi Türkiyədə rəsmi səfərdədir

# Anıtqəbri ziyarət





Türkiyə Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün mavzoleyini - Anıtqəbiri ziyarət edib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyəti Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoyub, xatirəsini ehtiramla yad edib.

Baş Qərargah rəisi Xatirə kitabına ürək sözlərini yazıb.

# Türkiyənin hərbi rəhbərliyi ilə görüş

Türkiyədə rəsmi səfərdə olan Azərbaycanın müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev sentyabrın 13-də qardaş ölkənin milli müdafiə naziri Hulusi Akar və Baş Qərargah rəisi ordu generalı Yaşar Güler ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşlərdə hərbi, hərbi-texniki, hərbi-təhsil, mühəndis təminatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə olunub. Həmçinin hər iki ölkənin orduları arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanıb.

* * *

Türkiyə Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev sentyabrın 13-də Türkiyə Respublikasının Baş Qərargahının ikinci rəisi ordu generalı Selçuk Bayraktaroğlu və Xüsusi Təyinatlı Qüvvələr Komandanı diviziya generalı Ömer Ertuğrul Erbakan ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşlərdə Azərbaycan ilə Türkiyə arasında əlaqələrin inkişafı, həmçinin hərbi və digər sahələrdə əməkdaşlığın uğurla davam etməsindən danışılıb.

Son zamanlar iki qardaş ölkənin birgə təlimlərinin əhəmiyyəti xüsusi vurğulanaraq, bu kimi təlimlərin təcrübə mübadiləsi, dostluq və qardaşlığın daha da gücləndirilməsi baxımından müstəsna rol oynayacağı bildirilib və gələcəkdə də birgə təlimlərin keçirilməsinin vacibliyi qeyd edilib.

General-leytenant Kərim Vəliyev Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin hazırda Bakıda keçirilən "Üç Qardaş - 2021" birgə beynəlxalq təlimini hərbi qulluqçuların peşəkarlığının artırılması baxımından vacib hesab etdiyini bildirib.



Müdafiə sahəsində əməkdaşlığın genişləndirilməsinin sadəcə ölkələrimiz üçün deyil, eləcə də bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verəcəyindən əminlik ifadə edilib.

Sonra Türkiyə Respublikasının Xüsusi Təyinatlı Qüvvələr Komandanlığının ərazisi ilə tanışlıq keçirilib.

Sonda qarşılıqlı şəkildə plaketlər təqdim edilib.



# "Üç qardaş - 2021"

## Beynəlxalq təlimin açılışına həsr olunan təntənəli mərasim keçirilib





*Əvvəli 1-ci səh.*

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Cavanşir Xüsusi Təyinatlı Qüvvələr komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyevə təlim iştirakçılarının açılış mərasiminə hazır olduqları barədə məruzə edib.

Xüsusi Təyinatlı Qüvvələr komandanı üç dövləti təmsil edən xüsusi təyinatlıları birgə təlimlərin başlaması münasibətilə təbrik etdikdən sonra Azərbaycan, Türkiyə və Pakistanın şəhidlərinin xatirəsini yad etmək üçün bir dəqiqəlik sükut elan olunub.

İştirakçı ölkələrin dövlət himnlərinin müşayiəti ilə həmin respublikaların dövlət bayraqları qaldırılıb.

General-leytenant H.Mirzəyev çıxış edərək Türkiyə və Pakistan xüsusi təyinatlılarının nümayəndələrini Azərbaycanda görməkdən çox məmnun olduğunu bildirərək deyib: "Azərbaycan, Türkiyə və Pakistan bəşəriyyət tarixinə bir-birinə yaxın dost və qardaş ölkələr kimi düşüb. Bu əlaqələrin mərkəzində dayanan isə xalqlarımızın bir-birinə sıx şəkildə bağlı olmalarıdır. Buna əyani sübut kimi Azərbaycanın 2020-ci il sentyabrın 27-də təcavüzkar Ermənistanın silahlı qüvvələrinə qarşı başladığı 44 günlük əks-hücum əməliyyatının ilk günündən Türkiyə və Pakistanın Azərbaycana həmrəylik və dəstək nümayiş etdirməsini göstərmək olar. Bu gün ölkələrimiz arasında bütün sahələr üzrə əməkdaşlıq ən yüksək səviyyədədir. Regionun və xalqlarımızın təhlükəsizliyinin təmin edilməsi üçün əlaqələrimizin daha da gücləndirilməsi və inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir".

General-leytenant H.Mirzəyev "Üç qardaş-2021" beynəlxalq təlimlərinin hər üç ölkənin hərbi qulluqçuları arasında geniş təcrübə və fikir mübadiləsi aparılacağına və onların peşəkar hazırlıq səviyyəsinin daha da artırılmasına böyük töhfə verəcəyinə əminliyini bildirib.

Türkiyə və Pakistan nümayəndə heyətlərinin rəhbərləri polkovnik-leytenant Kürşad Konuk və polkovnik-leytenant Aamir Şahzad çıxış edərək qeyd ediblər ki, xalqlarımız və ordularımız arasında bu dostluq bağı sürətlə dəyişən qlobal mühitdə zamanın sınaqlarından uğurla çıxacaq, beynəlxalq siyasi dəyişikliklərin güclü külləkləri bütün dünyanı bürüsə də, bu üç qardaş etibarlı regional tərəfdaş və əməkdaş olaraq daha da yaxınlaşacaqdır. "Üç qardaş-2021" beynəlxalq təlimi ordular arasında mövcud olan ikitərəfli əlaqələrin daha da gücləndirilməsinə xidmət edəcək, eyni zamanda, terrorla mübarizə üçün yeni üsulların kəşf edilməsinə və qarşılıqlı təcrübə mübadiləsi yolu ilə bacarıqlarımızı inkişaf etdirməyə imkan yaradacaq.

Açılış mərasiminin rəsmi hissəsi başa çatdıqdan sonra Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin komandanlığı qonaqlarla görüşüb, onlara təlimlərdə uğurlar arzulayıb.

Əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə hazırlanan "Əbədi, sarsılmaz qardaşlarıq biz" adlı musiqili-xoreoqrafik kompozisiya və "Üç qardaş-2021" beynəlxalq təliminə həsr olunan "Üç qardaş" mahnısının təqdimatı ilə açılış mərasimi başa çatıb.



# Xüsusi təyinatlılar "Üç qardaş - 2021" təlimində müxtəlif silahlardan atəş açıb

Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin "Üç qardaş - 2021" beynəlxalq təlimində atəş hazırlığı üzrə məşğələlər keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin planına əsasən xüsusi təyinatlı bölmələr atıcı silahlardan və qumbaraatandan praktiki atışların yerinə yetirilməsi tapşırıqlarını icra ediblər.

Qeyd edək ki, "Üç qardaş - 2021" beynəlxalq təlimi sentyabrın 20-dək davam edəcək.

# Hərbi Dəniz Qüvvələrində keçirilən birgə təlimlər başa çatıb

Hərbi Dəniz Qüvvələrində Azərbaycan və Türkiyə sualtı hücum və müdafiə qruplarının təlim-məşqlərinin başa çatması ilə bağlı tədbir keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov tədbirdə çıxış edərək bildirib ki, təlimlərdə qarşıya qoyulan tapşırıqlar iki qardaş ölkənin hərbi qulluqçuları tərəfindən uğurla və peşəkarlıqla yerinə yetirilib.

Təlimlərdə fərqlənən hərbi qulluqçulara fəxri fərman və qiymətli hədiyyələr təqdim edən kontr-admiral S.Bəkirov onlara gələcək xidmətlərində daha böyük nailiyyətlər qazanmağı arzulayıb.

Qeyd edək ki, iki qardaş ölkə ordularının nümayəndələrinin iştirakı ilə keçirilən birgə təlimlərin əsas məqsədi döyüş əməliyyatlarının aparılması zamanı bölmələrin qarşılıqlı fəaliyyətlərinin təkmilləşdirilməsi, xüsusi təyinatlı tapşırıqların icrası zamanı uzlaşmanın təmin olunması, eləcə də peşəkarlığın və bölmələrin idarəetmə vərdişlərinin inkişaf etdirilməsidir.

# "TurAz Şahini - 2021" birgə taktiki-uçuş təlimləri davam edir

Türkiyə Respublikasının Konya şəhərində keçirilən "TurAz Şahini - 2021" birgə taktiki-uçuş təlimlərində aviasiya vasitələrinin uçuşları müəyyən edilmiş marşrutlar üzrə yerinə yetirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimdə Vətən müharibəsində qazanılan təcrübə qardaş ölkənin hərbi pilotları ilə birgə təhlil olunaraq müxtəlif ssenarilər üzrə məşq etdirilir.

Ssenarilərə əsasən hərbi pilotlar tərəfindən qalxma və enmə, şərti hava və yer hədəfinin məhv edilməsi, kiçik və orta hündürlükdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar icra olunur.





# Yeni əsrin müqaviləsi

## 4 il əvvəl imzalanmış bu layihənin müəllifi İlham Əliyevdir

*Əvvəli 1-ci səh.*

AÇG üzrə HPBS-dən əldə olunan bilavasitə gəlirlərə Azərbaycan Respublikasına bonus ödənişləri, mənfəət neftindən pay, vergilər, təmənnasız səmt qazı, SOCAR-ın mövcud infrastrukturunun (gəmilər, qazma qurğuları, tikinti-quraşdırma sahələri və s.) modernləşdirilməsi, icarə haqları, məşğulluq fonduna, sosial və digər fondlara ödənişlər daxildir.

“Əsrin müqaviləsi”nin imzalanmasından keçən illər tarix üçün böyük zaman kəsiyi deyil. Bununla belə, həmin qısa dövr ərzində Azərbaycan bir sıra qlobal layihələr həyata keçirmiş, böyük uğurlara imza atmışdır. Bakıdan 55 kilometr cənubda dünyanın ən böyük neft-qaz terminallarından biri - Səngəçal terminalı tikilmişdir. Bakıdan Supsaya uzanan Qərb İxrac Boru Kəməri, üç ölkənin ərazisindən keçən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri çəkilmişdir. Azərbaycan Bakıdan Avropayadək 3500 kilometr məsafə qət edən, Xəzərin sahilindən başlayıb Adriatik dənizinin altından keçən və İtaliya torpağında quruya çıxan “Cənub qaz dəhlizi”ni yaratmışdır.

Azərbaycanın götürdüyü xətt düzgün, inkişafı davamlıdır. Özü də hər sahədə! Prezident İlham Əliyevin “Yeni əsrin müqaviləsi”nin imzalanmasında dediyi kimi: “Bizim çox böyük maliyyə resurslarımız var. Artıq 1999-cu ildən fəaliyyətə başlamış Azərbaycan Dövlət Neft Fondu bizim üçün çox önəmli bir amildir. Biz valyuta ehtiyatlarımızı artırırıq, hətta neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar yaranmış bəzi çətinliklər də bizi bu yoldan döndərə bilmədi. Biz hətta bu illərdə öz valyuta ehtiyatlarımızı artırmışıq, artıracağıq. Əlbəttə ki, “Əsrin kontraktı”nın uzadılması və “Şahdəniz” layihəsinin, “Cənub qaz dəhlizi”nin icrası nəticəsində bizim maddi imkanlarımız daha da genişlənəcək”.

Beləliklə, AÇG-dən növbəti illərdə çıxarılacaq neftdən gələn gəlirlər ölkəmizin maddi imkanlarının genişlənməsinə daha bir təkan verəcək. Çünki AÇG potensialı böyük olan yataqlar blokudur. Onun əsrin ortasınadək ölkəmizə gətirdiyi iqtisadi mənfəətlər maksimuma çatdırılacaq. 2050-ci ilədək bu yataqlar blokuna 40 milyard dollardan artıq sərmayə qoyulması nəzərdə tutulur. Beynəlxalq tərəfdaşlar ARDNF-yə 3,6 milyard dollar bonus ödəyəcəklər. Yeni müqavilənin şərtləri Azərbaycanın və SOCAR-ın son illərdə artan maliyyə və texnoloji potensialını əks etdirməklə yanaşı, həm də xarici tərəfdaş şirkətlərin Azərbaycan iqtisadiyyatına olan inamını da göstərir. Yəni ölkəmizin yaratdığı tərəfdaşlıq formatını yeni müstəviyə qaldırır.

Hazırda “Yeni əsrin müqaviləsi” - “Azəri Mərkəzi Şərqi” (ACE) layihəsi çərçivəsində bir neçə istiqamətdə iş aparılır. AÇG-nin operatoru olan bp şirkətinin məlumatına görə, COVID-19 pandemiyasının yaratdığı çətinliklərə və məhdudiyyətlərə baxmayaraq, işlər vəziyyətə uyğunlaşdırılmaqla fasiləsiz icra edilir. İri avadanlıqlar və digər materiallar tikinti-quraşdırma sahələrinə daşınır. Sualtı qurğuların quraşdırılması üzrə mühəndis-layihə işləri artıq başa çatıb. ACE platformasının üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri Bibiheybətdəki tikinti sahəsində irəliləməkdədir. Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda dayaq blokunun tikintisi müxtəlif sahələrdə davam edir. Layihə ilə bağlı dənizdə də bir sıra quraşdırma işləri gedir. Səngəçal terminalında yerləşəcək ACE nəzarət otağının layihələndirilməsi isə tamamlanıb və bununla bağlı planlaşdırılmış modifikasiya işləri bu ilin dördüncü rübündə başlanacaq.

Ümumilikdə ACE layihəsindən ilk hasilatı əldə etmək üçün həyata keçirilən mühəndis-layihə, tədarük və istehsal-quraşdırma işləri qrafikə uyğun gedir. Bu isə o deməkdir ki, “Azəri Mərkəzi Şərqi” (ACE) layihəsi - “Yeni əsrin müqaviləsi” ilk neftini nəzərdə tutulduğu vaxt, yəni 2023-cü ildə verəcək.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# Dövlət və cəmiyyət qəhrəman övladlarına sahib çıxır

*Əvvəli 1-ci səh.*

Həmin kateqoriyalara aid şəxslərin məşğulluq məsələlərinin həlli sahəsində də müvafiq işlər aparılır. Artıq 7100 şəxs özünüməşğulluq və digər aktiv məşğulluq tədbirlərinə cəlb olunub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi tərəfindən isə müharibə əlilləri də daxil olmaqla daha 49 nəfər əlilliyi olan şəxs və sağlamlıq imkanları məhdud uşaq Naxçıvan Muxtar Respublikasındakı sanatoriya-kurort və müalicə mərkəzlərinə göndərilib.

Bunlardan savayı, ƏƏSMN-nin tabeliyindəki “DOST İş” Mərkəzi “YAŞAT” Fondunun şəhid ailələri və qazilərlə bağlı tədbirlərinə əlavə dəstəyin göstərilməsi məqsədilə 150 nəfəri işlə təmin edib. “İşsizin DOSTu” proqramı çərçivəsində 150 sosial işçi Bakı və regional “ASAN xidmət” mərkəzlərinə təhkim edilib. İşə qəbul olunan 150 nəfərin hər biri ilə mərkəz arasında əmək müqaviləsi bağlanıb. Ümumilikdə “İşsizin DOSTu” proqramı çərçivəsində hazırda 56 mindən çox şəxs ödənişli ictimai işlərdə çalışır. Eyni zamanda Dövlət Məşğulluq Agentliyi sosial iş yerlərində əməkhaqlarının bir hissəsinin birgə maliyyələşdirilməsi proqramı çərçivəsində 932 şəxsə münasib iş yerlərinə göndəriş verib. Onlar əsasən şəhid ailəsi üzvləri, müharibə iştirakçıları, əlilliyi olan şəxslərdir. Göndəriş verilənlərdən artıq 312 nəfərlə işəgötürənlər arasında əmək müqaviləsi bağlanıb və onlar işə başlayıblar. Hazırda göndəriş verilən digər işsiz vətəndaşlarla əmək müqavilələrinin bağlanması prosesi davam edir.

Paralel olaraq 56 min şəxsi əhatə edən ödənişli ictimai işlər proqramı təkmilləşdirilir. Səbəbi ödənişli ictimai işlərə cəlb olunanların əsasən ilkin peşə hazırlığının olmamasıdır. Odur ki, onların proqram çərçivəsində bu və ya digər konkret peşə sahələri üzrə işlə təmin edilməklə həmin sahələrə aid ilkin peşə biliklərinə, bacarıqlara yiyələnmələrinə, beləliklə, bu bacarıqlar hesabına gələcəkdə müstəqil şəkildə öz işlərini qura bilmələrinə şərait yaradılması hədəf kimi qarşıya qoyulub.

Bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin cari ilin iyun ayından “Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!” devizi altında başladığı “Məşğulluq marafonu”dur. Artıq həmin marafona qoşulan işəgötürənlərin sayı 455-dən çoxdur. Marafona qoşulmaqla şəhidlərimizin ailə üzvlərinin, Vətən müharibəsində yaralanmış qazilərimizin məşğulluğuna dəstəyini ifadə edən həmin işəgötürənlər həm dövlət, həm də özəl müəssisələrdir. Onlar tərəfindən marafona 2044-dən çox vakansiya təqdim edilib və bu vakansiyalar üzrə işlə təmin olunanların sayı 600-ə yaxınlaşır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə cari il avqustun 26-da şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillər və avtomobillərin təqdim olunması ölkəmizdə bu kateqoriyalardan olan vətəndaşlara ən yüksək səviyyədə diqqət və qayğıkeşliyin növbəti təsdiqi oldu. Amma bu da cari il üçün sonuncu analoji tədbir deyil. Şəhid ailələri və müharibə əlillərinə ilin sonunadək daha bir neçə çoxmənzilli yaşayış binalarının təqdim ediləcəyi gözlənilir.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***



# Xarici işlər naziri Ceyhun Bayramov Türkiyə XİN başçısının müavini ilə görüşüb

Sentyabrın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Respublikasının xarici işlər nazirinin müavini Faruk Kaymakcının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov iki qardaş ölkə arasında mövcud olan və dinamik şəkildə inkişaf edən ikitərəfli əməkdaşlıq məsələlərinin geniş gündəliyi üzrə fikirlərini qarşı tərəflə bölüşüb. Eyni zamanda, çoxtərəfli platformalarda həyata keçirilən əməkdaşlığımızın möhkəmləndirilməsinin vacibliyini vurğulayıb.

Nazir Mövlud Çavuşoğlunun salamlarını Ceyhun Bayramova çatdıran Faruk Kaymakçı ölkələrimiz arasındakı strateji tərəfdaşlıq münasibətlərinin inkişafını məmnunluqla qeyd edib. Nazir müavini Türkiyədə baş verən yanğınlar zamanı Azərbaycanın yardımını yüksək qiymətləndirərək bu xüsusda təşəkkürünü ifadə edib. Tərəflər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, o cümlədən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Şurası və digər çoxtərəfli çərçivələrdə əməkdaşlıq imkanları üzrə fikir mübadiləsi aparıblar.

# Mədəniyyət naziri G20 Sammiti çərçivəsində İtaliyada keçirilən Dinlərarası Forumla bağlı Bolonyada səfərdədir

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos, ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Maliklə birgə “Mədəniyyət naminə sülh” (Peace4Culture) qlobal kampaniyası ilə bağlı üçtərəfli görüş keçirib.



AZƏRTAC xəbər verir ki, görüşdə əsas mövzu Azərbaycanın yeni təşəbbüsü olan “Mədəniyyət naminə sülh” qlobal kampaniyasının beynəlxalq sferada uğurla həyata keçirilməsi, BMT sistemində onun təbliği, eyni zamanda, islam ölkələri və İslam Əməkdaşlıq Təşkilatına daxil olan müxtəlif təşkilatlar vasitəsilə təşviqinə dair müzakirələr aparılıb.

Həmçinin görüşdə “Bakı prosesi”, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və bu çərçivədə Azərbaycanla həm BMT-nin Sivilizasiyalar Alyansı, həm də ICESCO ilə birgə həyata keçirilən layihələr barədə fikir mübadiləsi olub.

Nazir A.Kərimov “Mədəniyyət naminə sülh” qlobal kampaniyasına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yüksək dəstəyin ifadə olunduğunu və bu istiqamətdə Mədəniyyət Nazirliyinə konkret tapşırıqların verildiyini diqqətə çatdırıb. Eyni zamanda, bu layihə çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansı ilə birgə beşillik fəaliyyət planının hazırlanması, həmçinin fəaliyyət planında BMT-nin Sivilizasiyalar Alyansı ilə yanaşı ICESCO-nun da tərəfdaş qismində müxtəlif layihə və proqramlarının əks olunmasının vacibliyini qeyd edib.

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos iyun ayında ölkəmizə səfəri zamanı Azərbaycanda ona göstərilən yüksək qonaqpərvərliyə görə təşkilat adından təşəkkürünü bildirib, Prezident İlham Əliyevlə keçirilən görüşü xatırladaraq müzakirələr zamanı bu istiqamətdə müxtəlif ideyaların irəli sürüldüyünü diqqətə çatdırıb. Həmçinin onun tərəfindən bu qlobal kampaniyaya hər cür dəstək veriləcəyini, BMT-də bu layihənin təqdimatının keçiriləcəyini, eyni zamanda, BMT Sivilizasiya Alyansı olaraq layihəyə qlobal tərəfdaşların cəlb edilməsində mühüm rol oynayacaqlarını diqqətə çatdırıb.

ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik bu qlobal layihəyə təşkilat tərəfindən də böyük önəm verildiyini vurğulayıb, hətta layihənin təsis olunduğu tədbirdə təqdim olunan videomüraciətində təşkilat olaraq layihəyə dəstəyin ifadə olunduğunu xatırladıb. ICESCO-nun hazırda bir çox sülhyaratma layihələri ilə bağlı ideyalarının olduğunu da bildirib. Hazırda təməli qoyulan bir çox layihənin gələcəkdə kampaniya çərçivəsində inteqrasiyasının vacibliyindən danışıb.

Görüşdə layihəyə yeni tərəfdaşların cəlb edilməsi üçün gələcəkdə qlobal tərəfdaşlıq şəbəkəsinin qurulması, eləcə də bu ilin sonunadək bir sıra vacib addımların atılması qərara alınıb. Xüsusən BMT-də layihənin təqdim edilməsinin, həmçinin cari ilin dekabrında ICESCO-nun Baş Konfransında layihə ilə bağlı təqdimatın keçirilməsinin vacibliyi qeyd olunub.

# Mədəniyyət naziri Bolonyada ICESCO-nun Baş direktoru ilə görüşüb

İtaliyanın Bolonya şəhərində keçirilən G-20 sammitinin Dinlərarası Dialoq Forumunda iştirak edən Azərbaycanın mədəniyyət naziri Anar Kərimov ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-ICESCO əlaqələrindən söhbət açılıb, Baş direktorun bu ilin yanvar ayında Azərbaycana səfəri, həmin səfər çərçivəsində müzakirə olunan məsələlərlə bağlı yenidən fikir mübadiləsi aparılıb.

Anar Kərimov ICESCO-nun Baş direktorunun bu səfərinin Azərbaycan cəmiyyətində böyük rezonans doğurduğunu, ICESCO-nun 44 günlük Vətən müharibəsi zamanı və müharibədən sonrakı dövrdə ölkəmizə verdiyi dəstəyin bir daha yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Eyni zamanda, həmin səfər çərçivəsində razılaşdırılmış məqamların həyata keçirilməsi üçün konkret addımların atılması ilə bağlı müzakirələr aparılıb.

Salim bin Məhəmməd əl-Malik öz növbəsində Azərbaycana yüksək səviyyədə rəsmi səfərə dəvət edildiyinə və Prezident İlham Əliyev tərəfindən qəbul olunduğuna görə təşəkkürünü bildirib, görüşlərdə əldə olunan razılaşmaların icrası ilə bağlı ICESCO-nun artıq fəaliyyətə başladığını deyib.

Vurğulanıb ki, buraya ən vacib məqam olaraq Şuşa şəhərinin “İslam Mədəniyyətinin Paytaxtı” elan edilməsi, Azərbaycanda ICESCO-nun regional ofisinin açılması ilə bağlı məsələlərin tamamlanması, həmçinin ICESCO-da Nizami Gəncəvinin 880 illiyinin qeyd olunması kimi məsələlər daxildir.

Görüş zamanı cari ilin sonuna kimi ICESCO-nun Baş katibliyində Nizami Gəncəvi irsinə həsr olunmuş böyük beynəlxalq tədbirin təşkili, regional ofis ilə bağlı məsələlərin Azərbaycan tərəfinin təklif etdiyi məqamlara aydınlıq gətirildikdən sonra işçi qrup səviyyəsində müzakirə edilməsinə dair ümumi razılıq əldə olunub. Eləcə də bu ilin sonunadək həm ICESCO Baş Konfransında, həm mədəniyyət nazirlərinin konfransında bu məqamlarla bağlı təqdimatların edilməsi razılaşdırılıb.

Baş direktor, eyni zamanda, Azərbaycan tərəfinin yeni təşəbbüsü olan “Mədəniyyət naminə sülh” (Peace4Culture) qlobal kampaniyasına öz dəstəyini ifadə edərək 2021-ci ilin dekabr ayında keçiriləcək ICESCO Baş Konfransı çərçivəsində bu kampaniyanın geniş təqdimatının keçirilməsinə razılığını ifadə edib.

# Böyük zəfərin tarixi zəmini

## Şuşa Bəyannaməsi zirvəsindən Qars müqaviləsinə baxış



Əvvəli 1-ci səh.

### Qars konfransında ərazi-sərhəd məsələlərinin müzakirəsi

1921-ci il martın 16-da imzalanmış Moskva müqaviləsinə uyğun olaraq Rusiyanın vasitəçiliyi ilə Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndə heyətlərinin iştirakı ilə keçirilən Qars konfransı şəhər valiliyinin binasında həmin ilin sentyabrın 26-da açıldı və oktyabrın 13-dək davam etdi. Konfransda Azərbaycan hökumətini xalq fəhlə-kəndli nəzarəti komissarı Behbud Şahtaxtinski, Ermənistan hökumətini xalq xarici işlər komissarı Askanaz Mravyan, xalq daxili işlər komissarı Poqos Makinsiyan, Gürcüstan hökumətini xalq hərbi və dəniz işləri komissarı Şalva Eliava, xalq xarici işlər və maliyyə komissarı Aleksandr Svanidze, Türkiyə hökumətini Böyük Millət Məclisinin Ədirnəpoldan olan deputatı Kazım Qarabəkir Paşa, deputat Vəli, keçmiş ictimai işlər naziri Muxtar, Türkiyənin Azərbaycandakı səlahiyyətli nümayəndəsi Memduh Şövkət Esendal, vasitəçi kimi Rusiyanın Latviyadakı səlahiyyətli nümayəndəsi Yakov (Yakub) Qanetski təmsil edirdilər.

Konfransın məqsədi Türkiyə və Cənubi Qafqaz respublikaları arasında münasibətləri tənzimləmək və Moskva müqaviləsinin onlar tərəfindən qəbul edilməsi idi.

Açılış nitqində konfransın ümumi işinə uğurlar arzulayan Kazım Qarabəkir Paşadan sonra çıxış edən Yakov Qanetski Moskva müqaviləsini nəzərdə tutaraq Qarsa gəlməkdə məqsədin böyük işi başa çatdırmaq olduğunu belə ifadə etdi: *“Siz buraya gəlmisiniz ki, dinc dostluq müqaviləsi bağlayasınız və bütün dünyaya göstərəsiniz ki, Zaqafqaziya respublikalarının xalq kütlələri və qəhrəman türk xalqı öz maraqlarını başa düşərək bütün xarici düşmən qüvvələrin səylərinə baxmayaraq, qardaşlıq, sülh və dostluq şəraitində yaşamaq istəyirlər”.*

O, daha sonra bildirdi: *“Burada çox böyük bir hadisə baş verir. Qüdrətli türk və erməni xalqları sözdə deyil, işdə aralarındakı düşmənçilikdən əbədi olaraq imtina edəcəklərini bütün dünyaya sübut edəcəklər. Onlar bir-birinə sıyrılmış qılıncla deyil, hərarətli qardaşlıq sevgisi ilə gəlirlər. Milli nifaq deyil, xalqlar dostluğu mübarizə aparan xalqları möhkəmləndirə, bütün dünyaya xoşbəxtlik gətirə bilər. Yalnız bu şüar altında biz qalib gələ bilərik”.*

Yakov Qanetskidən sonra Azərbaycan, Gürcüstan və Ermənistan adından çıxış edən Askanaz Mravyan “qardaş türk xalqının imperializmə və zorakılığa qarşı mübarizədə qalib gəlməsini Cənubi Qafqaz xalqlarının arzuladıqlarının konfransda qeyd edilməsini və möhkəmləndirilməsini” vacib hesab etdi. Bildirdi ki, buraya düşmənçilik hissləri ilə deyil, burjua-millətçi hökumətlərin qoyub getdikləri və həll edilməyən mirası, mübahisəli, lənətə gəlmiş məsələləri aradan qaldırmaq üçün gəliblər. Əlavə etdi ki, onları bu məsələlər və düşmənçilik hissləri deyil, öz ölkəsinin azadlığı uğrunda mübarizə aparan zəhmətkeş türk xalqının mübarizəsi qarşısında rəğbət düşündürür, bu hisslər onları həyəcanlandırır və öz ölkəsinin müdafiəsinə qalxan xalqın qalib gələcəyi və düşmənin məğlub olacağı hissi düşündürür. Konfransın Cənubi Qafqaz xalqlarının qardaş türk xalqına münasibətdə bu hisslərini möhkəmləndirəcəyini qeyd edən Askanaz Mravyan daha sonra dedi ki, bu konfransa qalib və məğlub kimi gəlməyiblər. O, ümid etdiyini bildirdi ki, rus xalqının inqilabi mübarizəsi türk xalqı üçün Qərb imperializminə qalib gəlməkdə, Anadolu çöllərində Antantanın nökərlərinə qarşı apardığı mübarizədə bir nümunə olacaqdır. Daha sonra Cənubi Qafqaz xalqları adından belə bir əminlik ifadə etdi ki, konfrans türk xalqı ilə dostluq və qardaşlıq müqaviləsinin möhkəm əsaslarını yaradacaq, bu müqavilənin əsasında irəlidə bütün mübahisəli məsələlər daha asan və tezliklə həll olunacaqdır.

Konfransın işini sürətləndirmək üçün Yakov Qanetski iki komissiyanın yaradılmasını təklif etdi. Bunlardan biri sərhəd, digəri isə iqtisadi məsələlərlə məşğul olmalı idi. Komissiya müəyyənləşdirilməsi nəzərdə tutulan sərhədə baxacaqdı. Onlar sentyabrın 27-də səhər işə başlasaydılar, günün ikinci yarısında işlərinin nəticələri haqqında məruzə edə bilərdilər.

Sərhəd komissiyasının tərkibində yalnız ekspertlərin olmasına dair Yakov Qanetskinin təklifi ilə Kazım Qarabəkir Paşa razılaşdı. Yakov Qanetski bu komissiyaya B.Kuznetsovun sədr təyin edildiyini bildirdi. Çoxlu komissiyanın yaradılması problemlər doğura biləcəyindən Yakov Qanetski nümunə kimi Rusiya ilə Polşa arasında sərhədin daha böyük olduğunu, müəyyənləşdirilərkən bir komissiyanın işlədiyini söylədi. Kazım Qarabəkir Paşa bir komissiyanın yaradılması təklifi ilə razılaşdı. Yakov Qanetski Ani şəhəri məsələsini qaldıraraq bildirdi ki, bu şəhər və sərhəd haqqında yaxın zamanlarda qərar qəbul olunacağına ümid edir. Kazım Qarabəkir Paşa bu barədə Ankaradan cavab alınan kimi söyləyəcəklərini bildirdi. Əgər cavab olmasaydı, müqavilə layihəsindəki maddə dəyişdirilməyəcəkdi. Yakov Qanetski bu fikirləri diqqətə aldığını və sərhədə dair maddə ilə məsələnin başa çatmış olduğunu dedi. Kazım Qarabəkir Paşa da sərhəd haqqında məsələnin həll edildiyini bildirdi.

Konfransın sentyabrın 27-də keçirilən ikinci iclasındakı çıxışında Kazım Qarabəkir Paşa birinci iclas protokoluna belə bir əlavə etdi ki, türk xalqı ona zorla qəbul etdirilən Sevr müqaviləsini qəbul etməyib. O, həmçinin protokolların məzmunu ilə tanış olmağı, hər bir şəxsin oxumasını və sonra hər bir protokolu hamının imzalamasını təklif etdi.

Yakov Qanetski bütün sovet nümayəndələri adından təklif etdi ki, sərhəd komissiyası məruzə təqdim etsin və sərhəd haqqında məsələnin həllinə başlanılsın. O, konfransın işini sürətləndirmək üçün komissiyanın yalnız həll edilməyən məsələlərə dair məlumat verməsini, razılaşdırılan məsələlərə dair müzakirə açmamağı təklif etdi. Komissiyanın hər bir üzvü bu sənədə imza atmalı idi. Məsələ barəsində türk nümayəndə heyətinin fərqli bir fikri yox idi, yalnız detallar barəsində fikir ayrılığı ola bilərdi. Bu məsələlər iki başlıca qrupa bölüşdürülə bilərdi: məsələlərin bir qismini nümayəndələr yerində həll edə bilməzdilər. Məsələn, türk heyəti Ani şəhərinin xarabalıqları (Ani şəhəri 1319-cu ildə baş vermiş güclü zəlzələ nəticəsində dağılmışdı - M.Q.) haqqında hökumətinin rəyini soruşmuşdu. İkinci qrup məsələlər xırda sərhəd məsələləri idi, onları yerində həll etmək olardı. Həmin komissiyanın tərkibində tərəflərdən nümayəndələr daxil edildi. Sərhəd məsələsinə münasibətdə türk nümayəndə heyəti öz hökumətindən tamamilə aydın direktiv almışdı: sərhədlər Moskva konfransında müəyyənləşdirildiyi kimi təyin edilməli idi. Yalnız Ani şəhərinin xarabalıqlarına dair məsələ barədə türk nümayəndə heyəti hökumətinin cavabını gözləyirdi.

Komissiya üçün şübhəli olan məsələlərin müzakirəsinə başlamağı təklif edən Yakov Qanetski onların barəsində qərara gələ biləcəklərini söylədi, Ani şəhəri haqqında türk nümayəndə heyətinin hökumətinin rəyini öyrənmək istəyini xeyirxahlıq kimi qiymətləndirərək, bu yerə dair qərarı gözləyəcəklərini bildirdi.

Sərhədin qəti olaraq Arpaçaydan müəyyənləşdirilməsini təklif edən Kazım Qarabəkir Paşa Ani şəhərinin güzəştə gedilməsinin yalnız ayrı maddə ilə Türkiyənin Ermənistana rəğbət bəsləməsi formasında ola biləcəyini dedi. Onun fikrincə, təfərrüatları konfransda müzakirə etmək lazım idi. Bütün bu məsələlərə ortaq komissiya və hərbçilər tərəfindən yerində baxıla, lakin əgər konfrans israr etsəydi, müzakirə edilə bilərdi.

Yakov Qanetski bildirdi ki, türk nümayəndə heyətinin dediyi kimi, əgər sərhədlər Moskva müqaviləsinə əsasən müəyyənləşdiriləcəksə, onda Ani şəhəri Türkiyə tərəfində qalacaqdır, ayrıca maddə olardısa, onda Ani şəhəri Ermənistana keçirdi və iki maddə bir-biri ilə uyğun gəlmirdi. Türk nümayəndə heyətinin mövqeyinin işi sürətləndirmədiyini bildirən Yakov Qanetski bu məsələni açıq saxlamağı təklif edərək dedi ki, əgər qənaətbəxş cavab olarsa, onda Ani şəhərinin Ermənistana keçdiyi və Türkiyənin Ani şəhərini Ermənistana güzəştə getdiyi müvafiq bəyannamədə yazıla bilər.

Kazım Qarabəkir Paşa söylədi ki, sərhədlər Moskva konfransında qəti olaraq qəbul edildiyi və rus hökuməti tərəfindən sanksiya aldığı, prinsipcə Qafqaz respublikaları tərəfindən qəbul edildiyi üçün indiki zamanda hər hansı bir dəyişiklik müharibə aparan türk xalq kütlələrində xoşagəlməz təəssürat, həmçinin Avropada da müvafiq rəy yaradar. Ona görə də Moskva konfransında müəyyənləşdirilən sərhədlərin yenidən cızılmasını mümkünsüz hesab edən türk nümayəndə heyəti erməni nümayəndə heyətinin Ani şəhərinin xarabalıqlarına dair mövqeyinə tərəfdar çıxaraq, Ankara hökuməti ilə əlaqəyə girmək və bu şəhərin xarabalıqları haqqında ayrıca maddəni müqaviləyə daxil etmək istəyini bildirdi. Lakin bunun Moskva müqaviləsi ilə müəyyənləşdirilən sərhədlərin dəyişdirilməsi anlamına gəlmədiyini bildirən türk nümayəndə heyəti ona görə də müqaviləyə ayrıca maddə daxil edilməsini istəyirdi.

Bu məsələdə kiçik bir anlaşılmazlığın olduğunu deyən Yakov Qanetski bildirdi ki, nümayəndə heyəti Ani şəhərinin Ermənistana keçməsinə dair siyasi əhəmiyyət daşıyan ayrıca maddənin olmasına etiraz etmir. Əgər belə bir maddə olacaqsa, onda sərhədlə bağlı bir maddə digərini ləğv edir. O, türk nümayəndə heyətinin təklifinin doğru olmadığını bildirərək dedi ki, türk nümayəndə heyəti və hökuməti hazırda Cənubi Qafqazda, başlıcası isə Ermənistanda olan şəraiti bilir. Əgər türk heyəti Ani şəhərini güzəştə getmək istəyirsə, onda mənim təklifimi rədd etməməlidir. Bu, Avropada da yaxşı qarşılanar.

Kazım Qarabəkir Paşa sərhədlərin dəyişdirilməsinə razı olmadıqlarını, eyni zamanda erməni nümayəndə heyəti üçün xoş bir şey etmək, Ani şəhərinin xarabalıqlarını güzəştə getmək istədiklərini dedi. Lakin türk nümayəndə heyətinin əvvəlki bəyanatından belə çıxırdı ki, sərhəd göstərilmədən, Ani şəhəri daxil edilmədən gedir, Arpaçaydan keçir, sonra isə ayrıca maddə ilə Ani şəhərinin Ermənistana verildiyi yazılırdı. Moskva müqaviləsi ilə müəyyənləşdirilmiş sərhədlərin dəyişdirilməsinin az məlumatlı türk əhalisində pis, Ankara hökumətinin çox güzəştə getməsi barədə təəssürat yaradacağını bildirən Kazım Qarabəkir Paşa təklifinin mahiyyətini belə izah etdi: sərhəd Arpaçaydan keçir, sonra isə ayrıca maddədə Türkiyənin Ani şəhərinin xarabalıqlarını Ermənistana güzəştə getdiyi yazılır. Türk heyəti Moskva müqaviləsinin A əlavəsini qəbul etməyi və sonda Ani şəhərinin xarabalıqlarının Ermənistana güzəştə gedilməsini yazmağı təklif etdi.

Burada ziddiyyət yarandığını deyən Yakov Qanetski bildirdi ki, sərhədi indi dəyişməklə onu qəti olaraq çəkmək olmaz, dəmiryolu boyunca olan zonalar göstərilib. İkinci maddədə isə belə şərh olunurdu ki, türk hökuməti orada məlum istehkamlar qurmayacaqdır. Onun fikrincə, bunun sərhədlərlə heç bir əlaqəsi yox idi. Yakov Qanetski dedi ki, biz təkcə Ermənistan deyil, həmçinin Cənubi Qafqaz üçün əsaslı olan məsələni qaldırırıq, Türkiyə nümayəndə heyəti və Türkiyə hökuməti bizim təkliflə razılaşsaydı, bütün Cənubi Qafqaz respublikaları fövqəladə dərəcədə məmnun olardılar. O, daha sonra maddəni oxudu, sərhədin Arpaçaydan keçdiyini bildirdi. Maddənin sonunda Ani şəhərinin Ermənistana güzəştə gedilməsinə dair ayrıca maddə olacağı qeyd edildi. Kazım Qarabəkir Paşa Yakov Qanetskinin təklifini qəbul etdi. Ankaradan cavab alınanadək Ani şəhəri ilə bağlı məsələ açıq saxlanıldı.

Yakov Qanetski sərhəd komissiyasının sərhədin Moskva müqaviləsi ilə təyin olunmasını qəbul etdiyini və cəmi dörd bəndin açıq qaldığını deyərək, sözü komissiyanın sədri B.Kuznetsova verdi. Sədr komissiyada sərhəd məsələsinə baxılarkən Yeni Qızıldaş və Vartanlı kəndlərinin kimə məxsus olduğunun açıq qaldığını dedi. Kazım Qarabəkir Paşa bütün dörd bəndin birlikdə oxunmasını xahiş etdi. B.Kuznetsov bildirdi ki, ikinci bənd Kavtareti kəndi, üçüncü bənd Sabaur kəndi, dördüncü bənd isə Sarp kəndinin kimə məxsus olması barədədir.

Sərhədlərin çəkilməsinə dair məlum qaydanın olduğunu deyən Kazım Qarabəkir Paşa bildirdi ki, əgər konfrans onu qəbul edərsə, çətinliklər aradan qalxar. Əlavə etdi ki, sərhədləri çəkərkən kənd kimi təsadüfi məntəqələr əsas götürülməməlidir. Kəndlər dağıla, yana və məhv edilə bilər. Sərhədlər çəkilərkən təbii sərhədlər, məsələn, çaylar əsas götürülür. Çayın bir sahilində olan kənd digər tərəfdə, digəri isə başqa tərəfdə qalır. Əgər kənd əhalisi razı olmasa, istədiyi tərəfə keçə bilər. Kazım Qarabəkir Paşa təbii sərhədlərin çəkilməsini təklif etdi. Yakov Qanetski həmin təkliflə razılaşdı. Moskva konfransında Rusiya və Türkiyə məhz bu prinsipi seçmişdilər. Türk heyəti sərhədin yerində müəyyənləşdirilməsini təklif etdi. Bu işi ortaq komissiya yerinə yetirməli idi. Komissiya bəzən etnoqrafik prinsipi əsas götürmüşdü. Moskva müqaviləsində sərhədin Vartanlı, Qızıldaş və Kavtareti kəndlərindən keçməsi müəyyənləşdirilmişdi. Sərhəd Sarp kəndindən başlayırdı. Kəndin Qafqaz tərəfində qalan hissəsinin Türkiyə tərəfinə keçməsinə etiraz edilmədi. Kazım Qarabəkir Paşa mövcud vəziyyətdə sərhədin təbii sərhəddən - Sarp kəndindəki çaydan başlamasını təklif etdi. Moskva müqaviləsi görünür, bu çayı nəzərdə tutmuşdu. Kazım Qarabəkir Paşa uzaqdan xəritə üzərində bu və ya digər məntəqədə sərhədin cızılmasının mümkünsüzlüyünü bildirərək, ortaq komissiyanın yerlərə göndərilməsini təklif etdi. Komissiya coğrafi, iqtisadi və digər amilin üstünlüyünü yerində öyrənməli idi. Türk nümayəndə heyətinin sərhədə dair Moskva müqaviləsinin tam mətnini saxlamaq və ortaq komissiyanın bunu yerində təyin etməsi təklifi ilə Yakov Qanetski razılaşdı.

Sentyabrın 28-də keçirilən növbəti iclasda etdiyi çıxışında Kazım Qarabəkir Paşa komissiyanın sərhədlərə dair ümumi formulu artıq müəyyənləşdirdiyini və əgər etiraz olmazdısa, müzakirələrə başlamağı təklif etdi. Yakov Qanetski bildirdi ki, sərhədlərə dair maddəni burada rus dilinə çevirməyəcəklər, çünki maddə çoxlu adlar olan sırf texniki xarakter daşıyırdı. Müqavilə fransız dilində tərtib ediləcəkdə o, komissiyanın bu maddənin son mətnini fransız dilində təqdim olunmasını təklif etdi. Burada texniki anlaşılmazlıqlar ola bilməzdi.

Yakov Qanetski komissiyanın sərhəd məsələsində yekun qərara gəldiyini bildirdi. Komissiya hər iki hissənin tərcüməsində Moskva müqaviləsinin mətninə riayət etməyə çalışmışdı. Ona görə də hər iki hissəni bir maddədə birləşdirməyi təklif edən Yakov Qanetski əlavə etdi ki, bu zaman Moskva müqaviləsinin mətni ilə heç bir anlaşılmazlıq olmayacaqdır. Bundan sonra birinci paraqraf qəbul edildi və digər paraqrafların müzakirəsinə başlanıldı. Yakov Qanetski bütün coğrafi adların rus dilində oxunmasına ehtiyac olmadığını bildirdi. Çünki komissiyada bu adlara toxunulmuşdu. Lakin maddədə iki yerin izahata ehtiyacı olduğunu dedi. Maddənin Cənubi Qafqaza aid hissəsinin mətnində komissiyanın paritet əsasda formalaşdırılması barədə yazılmışdı. Kazım Qarabəkir Paşa müqavilənin türk mətnində nələrin yazıldığını dedi. Cənubi Qafqaza aid hissənin mətni oxunarkən Kazım Qarabəkir Paşa burada yazılmış “dövlətlərin sərhədləri” ifadəsini eşitdikdə onu dayandırıb belə bir sual verdi: “Dövlətlərin sərhədləri nə deməkdir?” Yakov Qanetski bunun iki dövlət arasında sərhəd olduğunu dedi.

Sentyabrın 30-da keçirilən iclasda Yakov Qanetski təqdim olunan müqavilə layihəsinin bütün Cənubi Qafqaz respublikalarının nümayəndələri tərəfindən imzalanması təklifini irəli sürdü. Kazım Qarabəkir Paşa bütün ümumi maddələri şərh etməyi və bu respublikalara aid olan maddələri ardıcıl düzməyi, sərhədlər haqqında maddəni hər bir respublika ilə ayrı maddədə bağlamağı təklif etdi. Onun fikrincə, əvvəlcə bütün respublikalara, sonra isə hər bir respublikaya aid olan maddələr verilməli idi. Məsələn, Ermənistana aid maddələr sərhəddən başlayaraq, sonra Ermənistana aid bütün məsələlər, sonra Gürcüstana aid məsələlər, sərhədə dair maddələrdən başlayaraq, bu respublikaya dair olan bütün məsələlərə aid maddələr, sonra Azərbaycana dair maddələr, sərhədə dair başlayan maddələr, sonra isə Azərbaycana dair olan bütün məsələlərə dair maddələr. O, təklif etdi ki, birinci maddə sərhədlər haqqında olsun, bütün bu maddələrin məcmusu hər bir respublikanın səlahiyyətli nümayəndəsi tərəfindən imzalanan bir ümumi traktatda tərtib edilsin.

Müqavilə layihəsi ilə bütün Cənubi Qafqaz respublikalarının nümayəndələrinin tanış olub-olmaması məsələsi ilə maraqlanan Kazım Qarabəkir Paşa bildirdi ki, əgər məqbul cavab olarsa, onda işi davam etdirəcəklər. Bütün nümayəndələrin layihə ilə tanış olduqlarını, yekdilliklə onu qəbul etdiklərini, Cənubi Qafqaz respublikalarının bir ümumi siyasi mərkəz yaratdıqlarını və həmin mərkəz vasitəsi ilə respublikaların siyasi və iqtisadi məsələlərini həll etdiklərini bildirən Yakov Qanetski dedi ki, bu respublikalar daxildə müstəqildirlər, lakin sürətli inqilabi fəaliyyət üçün birləşməyə qərar vermişlər. Yakov Qanetski türk nümayəndə heyətinin təklifini qəbul etməyərək, vahid bir müqavilənin bağlanmasında israr etdikdə, Kazım Qarabəkir Paşa iclasa 20 dəqiqəlik fasilə verilməsini xahiş etdi.

Axşam saat 8-də yenidən öz işinə başlayan iclasda çıxış edən Kazım Qarabəkir Paşa Cənubi Qafqaz respublikalarının hökumətləri arasında mövcud olan siyasi və iqtisadi birlikdən məmnunluğunu bildirdi. Şərqdə həmin birləşməni mövcud halda Türkiyə üçün bir qüvvə hesab edərək dedi ki, Moskva danışıqları zamanı bu barədə heç bir şey məlum deyildi, Qars konfransına dəvət zamanı Cənubi Qafqaz respublikalarının hökumətləri ayrıca nümayəndələr göndərməyi təklif etmiş və ayrıca müqavilələrin bağlanacağına güman edirdilər. Türk nümayəndə heyətinin Qafqaz respublikalarına hər cür güzəştə getdiyini bildirən Yakov Qanetski bu məsələdə də razılığa gələcəyinə ümid ifadə etdi.

Hər bir respublika ilə ayrıca müqavilə bağlamağı təklif edən Kazım Qarabəkir Paşa dedi: *“Hökumətimiz hər bir respublika ilə ayrıca müqavilə bağlamaq haqqında bizə göstəriş vermişdir”.*

O, daha sonra bildirdi: *“Moskva sovet hökuməti Güney Qafqaz respublikalarını müstəqil tanıdığını bildirir. Ona görə də biz onların hər biri müstəqil dövlətlər kimi ayrıca müqavilə bağlamaq istəyirik. Bu barədə bizə Mustafa Kamal Paşa göstəriş vermişdir”.*

Üç respublika ilə birlikdə vahid bir müqavilə bağlamağı təklif edən Yakov Qanetski mövqeyini aşağıdakı dəlillərlə əsaslandırdı: işi yüngülləşdirmək və sürətləndirmək lazımdır; ayrılıqda bağlana biləcək müqavilədə bir respublika digər respublikanın işinə qarışa bilər; burada bütün nümayəndə heyətləri iştirak edir; onlar məsələləri birlikdə həll edirlər; vahid bir müqavilənin imzalanması respublikalar üçün əlverişlidir; Moskva müqaviləsi imzalandıqdan sonra Cənubi Qafqazda vəziyyət dəyişmişdir; üç qardaş xalq birləşməyə doğru gedir; bu müddət ərzində sıx siyasi mərkəz yaradıblar; üç xalq Türkiyə ilə müqavilə bağlamağa getməyi sevinclə qarşılayıb; üç respublika birlikdə vahid müqavilə imzalanmasına Türkiyə ilə sıx ittifaq kimi baxır; vahid bir müqavilənin imzalanması Cənubi Qafqaz və türk xalqlarının ümumi düşmənə qarşı mübarizədə yeni imkanlar açır.

Məsələyə aydınlıq gətirən Azərbaycan nümayəndəsi Behbud Şahtaxtinski dedi: *“İnqilabi zərurət bizi vahid müqavilə bağlamağa məcbur edir. Bu vahid müqavilədə Cənubi Qafqaz respublikaları üçün məqsədəuyğunluq və fayda, Türkiyə üçün isə bizim ümumi düşmənimizə qarşı nümayiş görürük. Qeyd etməliyəm ki, bu respublikalar artıq iqtisadi, siyasi və hərbi cəhətdən birləşmişlər. Bizim aramızda ən ciddi ərazi müəyyənləşdirilməsi vardır. Bu respublikalardan hər biri müstəqil vahid kimi çıxış edir. Bütün bu vahid müqaviləyə baxmayaraq, hər bir respublikaya aid ayrıca fəsillərin olmasında ümumi işimizə fayda deyil, ziyan görürük. Bizi respublikamızda, evimizdə kütlələr başqa cür başa düşərlər. Buna görə də mən Azərbaycan Respublikası adından müqavilənin vahid olmasını və bu müqavilədə hər bir respublikaya aid ayrıca fəsillərin olmamasını israr edirəm. Azərbaycan inanır ki, Cənubi Qafqaz respublikalarının simasında Türkiyə və Rusiya vahid cəbhədirlər”.*

Behbud Şahtaxtinskinin çıxışından sonra Kazım Qarabəkir Paşa bildirdi ki, türk nümayəndə heyəti göndərdiyi teleqramın cavabında aldığı təlimata uyğun olaraq məlumat vermişdir və bu məsələ türk nümayəndə heyətinin səlahiyyəti xaricindədir. O, yenidən öz hökumətinə məlumat verəcəyini dedi. Yakov Qanetski türk nümayəndə heyətinin etdiyi təkliflə əlaqədar olaraq cari məsələlərlə məşğul olmağı irəli sürdü. Kazım Qarabəkir Paşa yekun bazanı müəyyənləşdirmək üçün layihəni oxumağı təklif etdi. Onun fikrincə, müqavilənin forması haqqında qərar yalnız Cənubi Qafqaz respublikaları və TBMM hökuməti arasında müvafiq münasibətlər qurulduqdan sonra qəbul ediləcəkdi. Bu qaydaya etiraz etməyən Yakov Qanetski onu doğru bildiklərini, lakin “bu respublikaların Türkiyə hökuməti ilə münasibətləri” ifadəsini başa düşmədiyini söylədi. Kazım Qarabəkir Paşa dedi ki, məsələ ondan ibarətdir, bu, diplomatik yolla TBMM hökumətinə və xarici nümayəndəliklərə çatdırılmalıdır.

Yakov Qanetski layihədə dəqiq razılaşmanın vacibliyini, çoxlu anlaşılmazlığın olduğunu qeyd edərək, xarici təmsilçilik barədə razılığını bildirdi. Konfrans haqqında məsələlərə gəlincə isə respublikaların səlahiyyətli nümayəndələrinə mandat verərək göndərdiyini dedi. Əgər bu nümayəndə heyətlərinin özlərinin həll edə bilməyəcəyi hər hansı bir məsələ olardısa, onu hökumətlərindən soruşa bilər, konfrans həll edə bilmədiyi məsələni hökumətlərin icrasına verə bilərdi. Türk nümayəndə heyətinin yenidən öz hökuməti ilə əlaqə yaratmaq istəyini başa düşmədiklərini bildirən Yakov Qanetski hər bir nümayəndə heyətinin səlahiyyəti olduğunu və türk nümayəndə heyətinin bununla razılaşmasını, müvafiq maddələrin müzakirəsinə başlamağı xahiş etdi. O, müqavilənin maddələrini müzakirə etməyi, formasını isə türk nümayəndə heyətinin öz hökumətindən cavab almasına qədər açıq saxlamağı təklif etdi.

Kazım Qarabəkir Paşa anlaşılmazlığın olmaması üçün türk nümayəndə heyətinin mövqeyini redaktə etməyi vacib hesab edərək bildirdi ki, Cənubi Qafqaz respublikalarının müqavilənin imzalanmasına dair təklifini qəbul edə bilmərik, bu barədə hökumətimizdən soruşduq, hökumətimiz də bizə növbəti fəaliyyət üçün ümumi müqavilə bağlamaq göstərişini verdi. Bildirdi ki, Cənubi Qafqaz respublikalarına aid olan bütün məsələlər ümumi, Türkiyəyə aid olan məsələlər ümumi maddələrə yerləşdirilməli, iqtisadi, siyasi və hərbi işlər isə ayrı verilsin. Türk nümayəndə heyəti etiraf etdi ki, müqavilənin Cənubi Qafqaz respublikalarının təklif etdiyi formada imzalanmasını, yəni bütün məsələlərin ümumi maddələrə yerləşdirilməsini, iqtisadi, siyasi və hərbi işlər üçün isə ayrıca ittifaq barədə məlumatı öz hökumətinin diqqətinə çatdırmalıdır.

Cənubi Qafqaz respublikaları arasındakı münasibətlər barədə hökumətinə məlumat verməyi lazım bilən Kazım Qarabəkir Paşa öz hökumətinin yalnız bu məlumat ilə kifayətlənməyəcəyini, onun formada qəbul edilməsinin mümkünlüyünü bildirdi: birincisi, məsələ hökumətlər arasında həll edilən kimi hər bir müqavilə onların razılığı ilə imzalanacaqdır; ikincisi, türk nümayəndə heyətinin istəyinə uyğun olaraq hər bir ölkəyə aid olan maddələr xüsusi qayda ilə ayrıca bir rubrikada veriləcəkdir. Hər iki hal türk nümayəndə heyəti zəruri hesab edirdi.

Bu məsələnin aydınlaşdırılması üçün türk nümayəndə heyətinin güzəştə getməsini xahiş edən Yakov Qanetski bildirdi ki, ümumi qəbul olunmuş beynəlxalq qaydaya görə əgər beynəlxalq konfranslarda hər hansı bir nümayəndə heyəti ölkəsinin hökumətinin mövqeyini öyrənib bəyan edirsə, bu, rəsmi mövqe olur. Əgər türk nümayəndə heyəti etiraz etməsəydi, hər bir nümayəndə heyəti ayrılıqda ölkəsinin mövqeyini TBMM hökumətinə çatdırmaq üçün təqdim edərdi. Respublikaların xarici siyasət nümayəndələrinin ya həmin gün, imkan olmasa o biri gün TBMM xarici işlər komissarına müvafiq məlumatı çatdırması qərara alındı. Türk nümayəndə heyətinin rəhbəri onu lazımi yerə çatdırmalı idi.

Bəyannamənin TBMM xarici işlər komissarına çatdırılacağını deyən Kazım Qarabəkir Paşa əlavə etdi ki, respublikaların nümayəndələrinin bəyanatı, bəyannaməsi qaneedicidir, lakin bu formanın diplomatik yollarla müəyyənləşdirilməsi vacibdir. Bildirdi ki, əgər son ana qədər burada iştirak edən bütün nümayəndələr ayrı-ayrı dövlətləri təmsil edirdilərsə, bu dövlətlərin siyasi ittifaq təşkil etdikləri sonradan aydın olsa, təbii olaraq hüquqi baxımdan türk nümayəndə heyəti onların bəyannaməsini qəbul edə bilməz. Lakin sülh müqaviləsinin imzalanması üçün danışıqları ölkələri adından aparan bu nümayəndələr, əlbəttə, bəyannamələrini ayrılıqda Ankaraya təqdim edə bilərdilər. Bəyannaməni türk nümayəndə heyətinin adına deyil, Ankaraya göndərməyi xahiş edən türk nümayəndə heyəti həmin sənədi ünvanına çatdıra bilərdi.

Cənubi Qafqaz respublikaları arasında olan məsələlərin daxili məsələ olduğunu deyən Yakov Qanetski bəyannamənin TBMM hökumətinə göndərilməsi məsələsində türk nümayəndə heyətinin arzuladığı formallığı gözləyəcəklərini dedi. Hər bir respublikanın xalq xarici işlər komissarı TBMM hökumətinin adına müvafiq bəyannamə göndərəcəkdi. Beləliklə, Azərbaycan, Gürcüstan və Ermənistanın bəyannaməsi TBMM hökumətinə təqdim edilmək üçün türk nümayəndə heyətinin rəhbərinə çatdırmaq xahişi ilə veriləcəkdi. Yakov Qanetski dedi ki, Azərbaycan adından bu bəyannamədə xalq xarici işlər komissarının deyil, Azərbaycan Xalq Komissarları Soveti sədrinin müavininin imzası olacaqdır. Bu zaman Kazım Qarabəkir Paşa Rusiya hökumətinin də öz tərəfindən Cənubi Qafqaz respublikaları arasında ittifaq haqqında məlumat verməsinin zəruri olduğunu bildirdi.

Bu barədə hökumətinə təcili məlumat verəcəyini deyən Yakov Qanetski eyni zamanda təəccüb edərək, bu tələbin konfrans ilə heç bir ümumi əlaqəsinin və türk nümayəndə heyətinin bəyanatının başa düşülən olmadığını bildirdi. Kazım Qarabəkir Paşa Rusiya nümayəndə heyətindən bu xahişin edilməsini yubanmaların və ləngimələrin aradan qaldırılması zərurəti ilə əlaqələndirdi. Yakov Qanetski dedi ki, əgər söhbət Rusiya hökumətinin mövqeyinin öyrənilməsindən gedirsə, onun bəyanatı hökumətinin rəsmi mövqeyi olduğundan bu, kifayətdir. O, Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında münasibətləri Moskva müqaviləsi əsasında formalaşdırmaq üçün buraya gəldiklərini deyərək, türk nümayəndə heyəti tərəfindən qaldırılan çoxlu formallıqları başa düşmədiyini, müvafiq formallıqların respublikalar tərəfindən ediləcəyini bildirdi.

Yakov Qanetski konfransın gedişində yuxarıda göstərilən məsələ ətrafında mübahisələrə dair xalq xarici işlər komissarı Georgi Çiçerinə göndərdiyi 3 oktyabr tarixli teleqramında səhər iclasında sovet tərəfinin təqdim etdiyi müqavilə layihəsinin müzakirə edildiyi barədə məlumat verərək yazırdı ki, türklər hər bir Cənubi Qafqaz respublikasının ayrıca paraqrafda göstərilməsini təklif edirlər. Bununla razılaşmadığını yazan Yakov Qanetski qeyd edirdi ki, onlar bu barədə Ankaradan soruşmağa qərar veriblər. Türklər Türkiyə ilə Cənubi Qafqaz respublikalarının ərazisinə aid əvvəllər imzalanmış müqavilələrin ləğvini istəmişdilər və bu təklif qəbul edilmişdi. İkinci maddədə türklər Milli Aktı tanımağı təklif etmişdilər, bu təklif də qəbul edilmişdi.

Konfransda Naxçıvan və Batum məsələsində qızğın mübahisələr getmişdi. Türklər bu maddələrin hər birinə aid həmin vilayətlərin muxtariyyətinə dair ümumi əsasları dəqiq müəyyənləşdirən əlavənin olmasını və konfransda müvafiq respublikalarla türklərin birgə müəyyənləşdirilməsini israr etmişdilər. Batum limanından türklərin istifadəsinə dair məsələ barədə mübahisələr dörd saat davam etmişdi. Onlar öz bəyannamələrini təqdim edəcək və bu da müqaviləyə əlavə ediləcəkdi. Yakov Qanetski həmin əlavələr təklifi ilə razılaşdığını və döyüşün ağır keçdiyini yazırdı. Konfransda Kazım Qarabəkir Paşa bir neçə dəfə bildirmişdi ki, xarici işlər naziri Yusuf Kamal Moskva müqaviləsinin dəqiq mənasına istinad edərək, onların tələbini bəyənir. Türklər üç dəfə demişdilər ki, onlar Ankaradan soruşacaqlar. Yakov Qanetski bu barədə güzəştə getdiklərini və nəhayət, türklərin razılaşdığını yazırdı. Başqa bir təklifə görə, Azərbaycan, Gürcüstan və Ermənistan Türkiyəyə köçmək istəyən müsəlmanlara mane olmamalı idi. Bu, Yakov Qanetski tərəfindən rədd edilmişdi.

Yakov Qanetskinin qeydləri ilə tanış olan Georgi Çiçerin elə həmin gün, oktyabrın 3-də TBMM-in xarici işlər naziri Yusuf Kamala göndərdiyi notada yazırdı: *“...Cənubi Qafqaz respublikaları arasında qarşılıqlı münasibətlər haqqında Qars konfransında türk nümayəndə heyətinin qaldırdığı məsələ ilə əlaqədar olaraq izah etməyi özümə şərəf bilirəm ki, ... bu respublikaların arasında sıx siyasi və iqtisadi ittifaq vardır, onlara aid olan siyasi və iqtisadi məsələləri birlikdə həll edirlər”.*

Behbud Şahtaxtinski isə xalq xarici işlər komissarı Mirzədavud Hüseynova yazırdı ki, konfrans heç bir ixtilaf olmadan keçir, yaxın günlərdə Cənubi Qafqaz respublikaları və Türkiyə arasında müqavilə qəti olaraq bağlanacaqdır.

Bu zaman bəzi qüvvələr rus-türk yaxınlaşmasını pozmaq üçün cəhdlər edirdilər. Konfransda yaranmış vəziyyət Rusiyanın Ankaradakı səlahiyyətli nümayəndəsi Sergey Naçarenusu narahat etdiyindən, o, oktyabrın 11-də Georgi Çiçerinə göndərdiyi teleqramında yazırdı ki, fransız nümayəndəsi Franklin Buyon ilə əldə olunmuş ilkin razılığa əsasən Türkiyə tərəfi Moskva müqaviləsini pozmaq üçün vasitələr axtarır və həmçinin Qafqazda keçmiş hökumətlərin bərpasına yardım etməyi öhdəsinə götürür. Əgər bu öhdəliyi yerinə yetirməyi Türkiyə həqiqətən qəbul edərsə, onda maksimum ehtiyatlı olmalıyıq, münasibətləri pozmaq üçün heç bir əsas verməməliyik. O, xahiş edirdi ki, qafqazlı yoldaşlar, xüsusən Gürcüstan və Ermənistan bunu diqqətə almalı, sərhəd məsələlərində xeyli ehtiyatlı olmalıdırlar. Bu öhdəlik götürülərdisə, kiçik bir ehtiyatsızlıq müqavilənin pozulması üçün rəsmi əsas ola bilərdi. O, Georgi Çiçerindən yardım göstərməyi xahiş edir, “hərarətli qafqazlı yoldaşlara müvafiq təlimat verməyi vacib hesab edir, əks təqdirdə çətin düzələn ağır bir zərbə vuracaqlarını” bildirirdi.

Qars müqaviləsinin şərtlərinin gələcəkdə mübahisələr doğurmamasından ötrü türk diplomatiyasının irəli sürdüyü təkliflər aşağıdakı kimi həll edildi: birincisi, Türkiyənin düzgün mövqeyini müdafiə edən Rusiya Moskva müqaviləsinin pozulmasının qəti şəkildə əleyhinə çıxdı, yəni Ani şəhəri Türkiyədə saxlanıldı; ikincisi, Qars konfransında iştirak edən Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndə heyətlərinin müqaviləyə dair hökumətlərindən aldıqları rəsmi dövlət cavabları Türkiyə hökumətinə diplomatik yollarla təqdim edildi, yəni bu respublikalar imzaları ilə müqavilənin imzalanmasına əvvəlcədən dövlət səviyyəsində razılıqlarını bildirdilər; üçüncüsü, Cənubi Qafqaz respublikalarının Ankarada nümayəndəliklərinin mövcud olması da müqavilənin dövlətlərarası səviyyəsini göstərirdi.

Beləliklə, Qars müqaviləsi imzalanmağa hazır idi.

*(ardı var)*

**Musa QASIMLI,**
**Milli Məclisin deputatı,**
**AMEA-nın müxbir üzvü, professor**






# QARABAĞ dirçəliş yolundadır






## Şuşalıların işğaldan azad olunmuş doğma yurdlarına növbəti səfəri təşkil edilib



*Əvvəli 1-ci səh.*

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov şuşalıları salamlayaraq bildirib ki, Azərbaycanın qədim diyarı Şuşanın sakinləri 30 ilə yaxındır doğma şəhərə gəlmək həsrəti ilə yaşayırdılar. 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tərəfindən Şuşa işğaldan azad edildi və bu həsrətə son qoyuldu: "Şuşa şəhərində sakinlərin layiqli, gözəl həyat yaşamaları üçün hər bir şərait yaradılacaq. Şuşa tezliklə dirçələcək və inkişaf edəcək. Böyük qayıdış başlayır, nəhəng quruculuq işləri sürətlə davam edir. Şuşalılar bundan sonra doğma şəhərlərində əbədi yaşayacaqlar".

Daha sonra Şuşa sakinləri Cıdır düzü, Qala divarları, Natəvan bulağı, Yuxarı və Aşağı Gövhər ağa məscidlərini, Şuşanın mərkəzi meydanında Üzeyir bəy Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün güllələnmiş heykəllərini ziyarət ediblər.

Səfər zamanı Şuşadakı evlərinə də baş çəkən sakinlər təəssüratlarını AZƏRTAC ilə bölüşüblər.

Şəhər sakini Südabə İsmayılova uzun ayrılıqdan sonra ilk dəfə Şuşanı ziyarət etdiyini bildirib: "Çox qarışıq hisslər keçiririk. Şuşamızın bu vəziyyətini görəndə bir tərəfdən kədərləniriksə, digər tərəfdən ona qovuşduğumuz üçün sevincimizin həddi-hüdudu yoxdur. Şuşa ilə görüşə oğlumla gəlmişəm. Nəvələrim də doğma Şuşamıza gəlməyə can atırlar".

Şuşa sakini Nüşabə Həsənova Şuşaya köçəcəyi günü səbirsizliklə gözlədiyini deyib: "Şuşadan 33 yaşında ayrılmışdım. Qızımın 5, oğlumun 13 yaşı var idi. Hazırda övladlarım ali təhsillidirlər, ailəlidirlər. Şuşaya 9 nəvəmlə qayıdacağım günü səbirsizliklə gözləyirəm".

54 yaşlı Rasim İsmayılov isə doğma şəhərini 24 yaşında tərk etdiyini bildirib: "Şuşanı bir gün olsa belə unutmadıq. Evimizi tərk edəndə 24 yaşım var idi. İnanırdım ki, bir gün olacaq dədə-baba torpaqlarımıza qayıdacağıq. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz Şuşanı işğaldan azad etdi. Çox sevinirik".

Şuşa şəhərinə səfər edən Şahmar Hüseynov Şuşaya qədəm basanda gözyaşlarına hakim ola bilmədiyini vurğulayıb: "Söz vermişdim ki, ağlamayacağam. Amma Şuşaya qədəm basanda göz yaşlarıma hakim kəsilə bilmədim. Doğma Şuşa bizə qucaq açıb. Mən əminəm ki, doğulub boya-başa çatdığım Şırlan kəndinə də bir gün gedə biləcəyəm".

Qeyd edək ki, Şuşa sakinlərinin doğma şəhərlərinə ilk səfəri avqustun 19-da təşkil olunub.

## Ağdam tezliklə regionun ən müasir şəhərinə çevriləcək








*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov ağdamlıları doğma şəhərlərində salamlayıb. Bildirib ki, məcburi köçkünlər 30 ilə yaxındır doğma yurdlarına gəlmək həsrəti ilə yaşayırdılar. İşğal altında olan torpaqlarımızın 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz tərəfindən azad edilməsi nəticəsində bu həsrətə son qoyuldu. Artıq işğaldan azad edilən ərazilərdə, o cümlədən Ağdamda inkişaf, quruculuq dövrü başlayıb. Ağdamlıların doğma şəhərlərinə səfərlərinin təşkil edilməsi Böyük qayıdışın bir hissəsidir. Tezliklə Ağdam yenidən qurularaq regionun ən gözəl, müasir bir şəhərinə çevriləcək və ağdamlılar öz şəhərlərində əbədi yaşayacaqlar.

Səfər iştirakçıları Ağdam şəhərinin baş planı ilə tanış olublar. Onlara Ağdamda həyata keçiriləcək quruculuq işləri barədə ətraflı məlumat verilib. Ağdamlılar doğma şəhərlərində aparılacaq işlərdən məmnunluqlarını ifadə edib, fikir və təkliflər səsləndiriblər.

Ağdam sakinləri daha sonra Cümə məscidini, İmarət kompleksini, Çörək muzeyinin və Dram Teatrının qalıqlarını ziyarət ediblər. Şəhərin gəzintisi zamanı onlara həyata keçiriləcək yenidənqurma işləri barədə məlumat verilib. Ağdamlılar səfər çərçivəsində Qiyaslı kənd məscidində və Şahbulaq qalasında da olublar. Qeyd edək ki, Ağdam sakinlərinin doğma şəhərlərinə ilk səfəri sentyabrın 5-də təşkil olunub.

## "Mən bir qəhrəman anası kimi Şuşada olmaqdan fərəhlənirəm"

"Şuşanın işğalı dövründə ermənilərin bu şəhərdə törətdikləri dağıntıları, vandalizmi əyani görmək insanı dəhşətə gətirir. Bu cür gözəl şəhərdə baş verən vəhşiliklərin, barbarlığın tayı-bərabəri yoxdur. Düşmən cansız daşlara belə güllə atmaqdan, təbiəti viran qoymaqdan çəkinməyib. Bu vəhşiliklər təkcə Azərbaycan xalqına qarşı deyil, ümumilikdə bəşəriyyətə, insanlığa qarşı törədilmiş bir cinayətdir".



AZƏRTAC xəbər verir ki, bu sözləri "Azad Həmfikirlər" Gənclərin Maarifləndirilməsi İctimai Birliyinin sədri Samirə Mustafayeva Şuşaya səfəri zamanı bildirib. Vətən müharibəsində Azərbaycan dövlətinin və xalqının bütün dünyaya öz gücünü göstərdiyini, "dəmir yumruq" birliyi ilə haqq və ədalət savaşından qalib çıxdığını qeyd edən S.Mustafayeva hazırda ölkəmizin işğaldan azad edilmiş torpaqlarda bərpa və quruculuq işləri ilə də bütün dünyanın diqqətini cəlb etdiyini bildirib: "Biz fəxr edirik ki, güclü, qalib Azərbaycan xalqının nümayəndələriyik. Şuşanı ziyarət etməkdən hədsiz xoşbəxtəm. Oğlum Kamil Balakişiyev də Şuşanın alınmasında iştirak edib. Mən bir qəhrəman anası kimi də Şuşada olmaqdan fərəhlənirəm. Azərbaycan xalqına ancaq qələbə və zəfər yaraşır".

## "Şuşa şəhərinə qalib ölkənin vətəndaşları kimi gəlməyimizlə qürur duyuruq"

"Qalib Azərbaycanın vətəndaşı kimi Şuşanı ziyarət etmək hər birimizin ən böyük arzusu olub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə böyük qəhrəmanlıq göstərərək Şuşanı işğaldan azad edən rəşadətli Ordumuzun sayəsində bu gün bu xoşbəxtlik bizə nəsib oldu. Keçirdiyimiz hissləri sözlə ifadə etməkdə çətinlik çəkirik. Qalib ölkənin vətəndaşları kimi Şuşa şəhərinə gəlməyimizlə qürur duyuruq".



AZƏRTAC xəbər verir ki, bu sözləri Demokratik Azərbaycan Naminə İctimai Birliyinin sədri Elməddin Behbud bildirib.

Müqəddəs və qədim Şuşa şəhərinin 30 ilə yaxın bir müddətdən sonra işğaldan azad edilməsinin müharibənin sonrakı gedişinə təsir etdiyini bildirən E.Behbud deyib: "Şuşanın rəşadətli Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilməsi müharibənin sonrakı gedişinə həlledici təsir göstərərək Zəfər günü kimi tariximizə yazılıb. Vətən müharibəsində düşmənə göz açmağa aman verməyən qəhrəman oğullarımız ölüm-dirim savaşına girərək Şuşanı elə cəsurluqla azad ediblər ki, bu qəhrəmanlıq dillərdə dastan olub. Yüngül silahlarla sıldırım qayaları aşan döyüşçülərimiz düşməni diz çökdürdülər və torpaqlarımızdan qovdular. Əminik ki, yaxın zamanlarda Xankəndiyə də səfər edəcəyik".

Elməddin Behbud Azərbaycan xalqının Şuşanı hər zaman özünün mənəvi paytaxtı hesab etdiyini, tarixinin, mədəniyyətinin beşiyi sandığını, əzəməti ilə qürurlandığını vurğulayıb: "Azərbaycan xalqı Şuşanı özünün mənəvi paytaxtı hesab edir, tarixinin, mədəniyyətinin beşiyi sanır, bu qədim diyar ilə qürur duyur. Biz vətəndaş cəmiyyətlərinin nümayəndələri Şuşa şəhərində olarkən onun mədəni, dini abidələri, müxtəlif tarixi məkanları ilə yaxından tanış olmaqdan şərəf duyduq".

E.Behbud Şuşaya səfər zamanı Füzulidə, eləcə də ətraf torpaqlarımızda erməni işğalçılarının törətdikləri vəhşiliklərin, vandalizmin şahidi olduqlarını bildirib. O, vətəndaş cəmiyyətlərinin əsas vəzifələrindən birinin də işğaldan azad edilmiş torpaqlarımızın erməni barbarlar tərəfindən viran qoyulması, dini, tarixi abidələrimizin dağıdılması faktları ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması olduğunu bildirib.



## *Ağdamlı gənc:* "Prezidentimiz təkcə ədaləti bərpa etmədi, o, bizi evimizə, doğma torpaqlarımıza qovuşdurdu"



"Doğma torpağımdayam, 28 il sonra cənnət Ağdamımdayam. Buradan bütün Azərbaycanı salamlayıram. O qədər xoşbəxt və qürurluyam ki, bu hissləri ifadə etməyə söz tapmıram. Azərbaycan gənci olmağımla fəxr edirəm".

Bunu AZƏRTAC-ın bölgə müxbirinə Ağdam şəhərinə səfər etmiş ağdamlı gənc Fidan Nəsirli söyləyib.

O deyib: "Ağdamda vandalizm törədilib, bu gözəl şəhər yerləyeksan edilib. Ancaq buranın parçalanmış daşı da, havası da, suyu da bizə doğmadır. İllərlə köksü yaralı Azərbaycanı öz qanı, canı bahasına bütövləşdirən şəhidlərimizin ruhu qarşısında baş əyirəm, qazilərimizə şəfa diləyirəm. Müzəffər Ali Baş Komandanımız, şanlı Azərbaycan Ordusu var olsun. Prezidentimiz təkcə ədaləti bərpa etmədi, o, bizi evimizə, doğma torpaqlarımıza qovuşdurdu. Bundan sonra da "dəmir yumruq" birliyini heç kim poza bilməz. Yaşasın Azərbaycan, Qarabağ Azərbaycandır!"

## *Xalq artisti Ramiz QULİYEV:* "Ağdamın dağlarına baxanda ürəyim dağa dönür"

"İnsanlar vətənlərinə, yurdlarına - viran qalmış, dağıdılmış Ağdama necə sevgi-məhəbbətlə gəlirlər. Mən bu gün böyük sevinc və qürurla yaşayıram. Ağdamın dağlarına baxanda ürəyim dağa dönür".



Bunu AZƏRTAC-ın bölgə müxbirinə 28 ildən sonra Ağdam şəhərinə səfər etmiş respublikanın Xalq artisti, professor Ramiz Quliyev söyləyib.

O deyib: "Biz böyük Qələbənin şahidi olduq. İşğal altında olan torpaqlarımız 44 gündə azad edildi. Qarabağın işğaldan azad olmasından sonra biz daha qüvvətliyik, daha xoşbəxtik. May ayının 28-də Prezident İlham Əliyevin Ağdam şəhərində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə mən də iştirak edirdim. İnanıram ki, biz qısa müddətdə Ağdamda hər tərəfdə gül-çiçəyin şahidi olacağıq. Ağdamın xoşbəxt günlərini görəcəyik. Şəhidlərimizə rəhmət diləyir, onların valideynlərinə, qazilərə, ordumuza "var olun" deyirik. Ali Baş Komandana təşəkkürümüzü bildiririk. Qarabağ Azərbaycandır!"

## *Əməkdar artist Azad ŞÜKÜROV:* "Doğma torpaqlara gəldiyim üçün sevinc və qürur hissi keçirirəm"

"Böyüyüb boya-başa çatdığım yerləri belə viran görmək mənim üçün asan deyil. Gözəl yurdumuz yerləyeksan edilib".



Bunu AZƏRTAC-ın bölgə müxbirinə Ağdam şəhərinə səfər etmiş Əməkdar artist, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, aktyor və bədii qiraətçi Azad Şükürov deyib. O, eyni zamanda uzun illərdən sonra azad edilmiş torpaqlara gəldiyi üçün böyük sevinc və qürur hissi keçirdiyini bildirib: "Torpaqlarımızı işğaldan azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Azərbaycan Ordusunun əsgərlərinə, zabitlərinə çox-çox minnətdaram. Allahdan şəhidlərə rəhmət, qazilərə cansağlığı arzulayıram. Artıq Ağdam tikilməyə başlayıb. Qarabağ yenidən qurulur. Qarabağımızı yenidən tikən, quran hər bir kəsə də minnətdarlığımı bildirirəm. İçimdə bir sevinc, qürur hissi var. Biz doğma torpaqlarımıza qayıtmışıq. Biz bu torpaqları yenidən quracağıq. İnanıram ki, burada böyük mədəniyyət hadisələri baş verəcək və mən də bir mədəniyyət xadimi kimi bu yolda əlimdən gələni əsirgəməyəcəm".

## *Ağdam ziyalısı:* "Qarşımızda xarabalığa çevrilmiş yurd yerlərini yenidən qurmaq kimi vəzifə dayanır"

"Dünyada insan tərəfindən yaradılan möcüzələr çoxdur. Vətən müharibəsi də müasir dünyanın ən böyük möcüzələrindən biridir".



Bunu AZƏRTAC-ın bölgə müxbirinə 28 ildən sonra Ağdam şəhərinə səfər etmiş rayon ziyalısı Hüseyn Bayramov söyləyib.

O deyib: "Bu gün Ağdam sakinlərinin bir qrupu ilə işğaldan azad edilmiş yurdumuza gəlmişik. Ağdamın yerləyeksan edilmiş, xarabalığa çevrilmiş vəziyyətini görmək çox kədərlidir. Eyni zamanda sevinc içindəyik ki, doğma torpağımızdayıq. Buna görə Müzəffər Ali Baş Komandana, şəhidlərimizə, qazilərimizə, əsgərlərimizə, zabitlərimizə borcluyuq. İndi qarşımızda xarabalığa çevrilmiş yurd yerlərini bərpa etmək, yenidən qurmaq kimi vəzifə dayanır və biz bunun da öhdəsindən gələcəyik".

## *Şuşa sakini:* "Şəhərimizdə aparılan quruculuq işləri biz şuşalıların ürəyini dağa döndərir"



"Şuşadan 32 yaşında çıxmışdım. Bu gün doğma Şuşamızda olmaqla sanki bizə bir dünya bəxş edildi. Burada aparılan genişmiqyaslı quruculuq işləri biz şuşalıların ürəyini dağa döndərir. Əminik ki, qədim Şuşa həm də dünyanın ən müasir şəhərlərindən birinə çevriləcək".

AZƏRTAC xəbər verir ki, bu sözləri Şuşa sakini Rafael Ağayev doğma şəhərinə səfəri zamanı bildirib. O, qeyd edib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun böyük qəhrəmanlığı nəticəsində Qarabağın ürəyi sayılan Şuşa işğaldan azad olunub. "Biz şuşalılar Prezident İlham Əliyevə və düşmən qarşısında sinələrini sipər edib işğalçıları qanı, canı hesabına torpaqlarımızdan qovan igid oğullarımıza həmişə minnətdar olacağıq", - deyə o, əlavə edib.

Rafael Ağayev bildirib ki, Şuşada elə bir yer yoxdur ki, ora tarixi abidələrlə zəngin olmasın. Şuşanın özü dünyanın ən nadir tarixi abidələrindən biridir. O, Şuşada məskunlaşacağı günü böyük səbirsizliklə gözlədiyini deyib.

## QHT təmsilçiləri Şuşada aparılan quruculuq işləri ilə tanış olublar

Sentyabrın 12-də Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının (QHT) təmsilçiləri işğaldan azad olunan Şuşa şəhərinə səfər ediblər.




AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə təşkil olunan səfərdə 160-dan çox QHT təmsilçisi iştirak edib. QHT təmsilçilərini müşayiət edən Prezident Administrasiyasının məsul əməkdaşı, QHT-lərə Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının sədr müavini Vüsal Quliyev səfərin əhəmiyyəti, Şuşada aparılan quruculuq işləri barədə nümayəndə heyətinə məlumat verib.

QHT təmsilçilərinin Şuşaya səfəri məşhur Cıdır düzünün ziyarəti ilə başlayıb. Daha sonra Yuxarı Gövhər ağa məscidində olan nümayəndə heyəti Şuşanın mərkəzi meydanında Azərbaycan mədəniyyətinin tanınmış simaları Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərini ziyarət ediblər. Həmçinin ermənilər tərəfindən 30 ilə yaxın müddət ərzində vəhşiliklə dağıdılmış digər maddi-mədəni abidələr, inzibati və yaşayış binalarına baxış keçirib, aparılan təmir-bərpa işləri ilə yaxından tanış olublar.

QHT təmsilçisi Kənan Qubadzadə Şuşa səfərinin onlarda xoş təəssüratlar oyatdığını bildirib. Şuşanın xəyallarının şəhəri olduğunu bildirən K.Qubadzadə bu səfərin onlar üçün böyük önəm daşıdığını vurğulayıb.

Qeyd edək ki, Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının təmsilçilərinin Şuşaya səfəri sentyabrın 11-də başlayıb.

Beləliklə, iki gün ərzində 300-dək QHT təmsilçisi Şuşaya səfər edib.

# Şəhid adına park yaradılmışdır





Şanlı zəfərimizlə başa çatan Vətən müharibəsində erməni faşistlərinə qarşı döyüşlərdə qəhrəmancasına həlak olan şəhidlərdən biri də dağlar diyarı Lerikdə dünyaya göz açmış mayor Amid Rəbbil oğlu Heydərovdur.

Öz şərəfli ölümü ilə xalqına başucalığı gətirən igid zabit Cəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərdə xüsusi rəşadət göstərmişdir. O, ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Lerik şəhərində Vətən müharibəsi qəhrəmanı mayor Amid Heydərovun xatirəsinə park yaradılmış, orada büstü ucaldılmış və bulaq kompleksi tikilmişdir. Parkın açılış mərasimi təntənəli şəkildə keçmişdi. Dövlət himninin səslənməsi ilə başlanan mərasimdə şəhidin büstü qarşısına Lerik Rayon İcra Hakimiyyəti və Milli Məclis adından əklil, gül-çiçək dəstələri qoyulmuşdu.

Tədbirdə çıxış edən Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşiyev qeyd etdi ki, səfərbərlik elan olunduğu zaman Lerik rayonundan olan yüzlərlə gənc Vətən naminə ordu sıralarına qatıldı. Onların 46 nəfəri haqq savaşımızda şəhidlik zirvəsinə ucaldı. Qanları ilə tarix yazan şəhidlərin xatirələrini xalq daim əziz tutur, qərinələr boyunca da belə olacaqdır. Dövlət tərəfindən şəhid ailələrinə, qazilərə həmişə yüksək qayğı göstərilir. Leriklilər Qarabağın azad olunmasında şücaət göstərən Amid kimi qəhrəman oğulları ilə qürur duyurlar.

Milli Məclisin deputatı İqbal Məmmədov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin rəisi Arif Həsənov 44 günlük Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitlərinin cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında misilsiz şücaət göstərərək 30 illik işğala son qoyduqlarını bildirdilər.

Mərasimdə çıxış edən şəhidin ailə üzvləri, döyüş yoldaşları şəhid adına göstərilən ehtirama, davamlı diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya səmimi minnətdarlıqlarını bildirdilər.

***Zəfər ORUCOĞLU,***
*Lerik*

# Heydər Əliyev Fondunun dəstəyi ilə Goranboyda daha bir məktəb binasının inşası yekunlaşır

Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində Goranboy şəhər 1 nömrəli tam orta məktəbi üçün inşa edilən yeni məktəb binasında son tamamlama işləri görülür.



700 şagirdlik yeni məktəb binasında 34 sinif otağı, kimya və biologiya laboratoriyaları, geniş idman, akt və yeməkxana zalları, müəllimlər otağı inşa edilmişdir. Məktəbdə həmçinin müasir istilik sistemi, 50 tonluq su anbarı, müəllimlər və şagirdlər üçün ayrıca sanitar qovşaqları da yaradılmışdır. Ümumiyyətlə, 3 mərtəbəli məktəb binasında tədrisin yüksək səviyyədə aparılması üçün bütün şərait olacaq.

Valideyn Səadət İsgəndərova deyir ki, uzun illər idi övladını məktəbə yola salanda nigaran qalırdı: "Məktəb qəzalı vəziyyətdə idi. Sağ olsun Mehriban xanım, onun köməyi ilə uşaqlarımız artıq hər bir şəraiti olan yeni təhsil ocağında oxuyacaqlar".

Məktəbin 11-ci sinif şagirdi Fatmeyizəhra Aslanova isə öz sevincini belə ifadə etdi: "Yeni dərs ilinin başlanacağı günü səbirsizliklə gözləyirik. Əvvəlkindən fərqli olaraq indi geniş və işıqlı sinif otaqlarında dərs keçəcəyik. Söz yox ki, bizim bu şəraitə cavabımız daha yaxşı oxumaq olmalıdır".

Rayon Təhsil şöbəsinin müdiri Seymur Nazarov deyir ki, Goranboyda daha bir məktəb binası inşa edilir: "Bu, Dəliməmmədli şəhərində tikilən 960 şagirdlik yeni məktəb binasıdır. Məktəbin ilin sonunda istifadəyə verilməsi nəzərdə tutulur. 3 mərtəbəli məktəb binasında sinif otaqlarından savayı 5 laboratoriya, idman zalı, eləcə də digər köməkçi otaqlar olacaq".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Qazinin müalicəsinə, şəhid ailəsinin mənzilinin təmirinə yardım olunub

Naftalan şəhərində Vətən müharibəsi şəhidlərinin ailələrinə, əlillərə və iştirakçılara daim diqqət və qayğıkeşliklə yanaşılır. Şəhər rəhbərliyi müntəzəm olaraq onların problemləri ilə maraqlanır, qaldırdıqları məsələlərin həlli ilə əlaqədar operativ tədbirlər görür.

Növbəti belə görüşdə Vətən müharibəsi qazisi İlkin Tağıyevi narahat edən problemlər dinlənilib, onların həlli istiqamətində konkret tədbirlər həyata keçirilib.

Yaralandığı vaxtdan qazimizin müayinə və müalicəsi üçün ayrı-ayrı vaxtlarda lazımi kömək göstərilmişdir. O cümlədən qazi Bakıya müalicə üçün gedəndə nəqliyyat vasitəsi və xərclərin qarşılanması üçün maddi vəsaitlə təmin edilmişdir.

Şəhərdə şəhid ailələri də diqqət mərkəzində saxlanılır. Elə bu yaxınlarda şəhid Fərid Adıgözəlovun ailəsinin yaşadığı mənzildə təmir işlərinə başlanılmışdır.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Ermənistanın raket atəşlərindən zərər çəkmiş Gəncə sakinlərinin müraciətləri dinlənilib







Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində zərər çəkən sakinləri ilə növbəti görüş keçirilib. Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə keçirilən görüşdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin nümayəndələri, podratçı şirkətlərin rəhbərləri iştirak ediblər.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Ərazi-Tikinti Planlaşdırma Mərkəzinin sədr müavini İlqar Sadıqov və digər aidiyyəti qurumların nümayəndələri fərdi yaşayış ev və mənzillərində bərpa, təmir-tikinti işləri həyata keçirilən vətəndaşları tək-tək dinləmişlər. Onlayn qaydada keçirilən görüşdə sakinləri rahatsız edən məsələlərə aydınlıq gətirilmiş və onları maraqlandıran suallar cavablandırılmışdır. Müzakirələr zamanı üzə çıxan problemlərin aradan qaldırılması istiqamətində müvafiq tapşırıqlar verilmişdir. Görüşdə o da vurğulanmışdır ki, sakinlərə dəyən ziyanın tezliklə aradan qaldırılması üçün belə dinləmələr tez-tez keçiriləcək.

Xatırladaq ki, Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində onlarca fərdi yaşayış evi və mənzil tamamilə dağılmış, minlərlə şəhər sakininin əmlakına ciddi ziyan dəymişdir. Artıq 6 aydan çoxdur ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən həmin ziyanların aradan qaldırılması istiqamətində tədbirlər görülür.

Qeyd edək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.01.2021-ci il tarixli müvafiq sərəncamı ilə 27 sentyabr 2020-ci il tarixindən etibarən Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasına təcavüzü nəticəsində dəymiş ziyanın aradan qaldırılması ilə bağlı zərər dəymiş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi üçün yaşayış evlərinin və obyektlərin tikintisi üzrə sifarişçi funksiyaların, habelə inşa prosesində həyata keçiriləcək işlərin təşkili və əlaqələndirilməsi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə həvalə edilmişdir.

***Sabir YUNİSOĞLU,***
***"Azərbaycan"***


## "Səba" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-1-ci maddəsinə müvafiq olaraq "Səba" ASC-nin Direktorlar Şurasının qərarına əsasən 29 oktyabr 2021-ci il saat 15:00-da Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1 ünvanında cəmiyyətin inzibati binasında "Səba" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının Növbəti Ümumi Yığıncağı keçiriləcək. Ümumi Yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilmişdir:

1. Cəmiyyətin 2020-ci il üzrə maliyyə hesabatının təsdiqlənməsi.
2. Bankdan dövriyyə vəsaitlərinin artırılması məqsədilə cəlb edilmiş kreditin təminatı qismində Cəmiyyətə məxsus əmlakın Bankın xeyrinə sonrakı ipotekaya qoyulması.
3. Cəmiyyətin dövriyyə vəsaitlərinin artırılması məqsədilə bankda kredit xəttinin açılması və kreditin təminatı qismində Cəmiyyətə məxsus əmlakın Bankın xeyrinə sonrakı ipotekaya qoyulması, həmçinin bu əmlakın yerləşdiyi torpaq sahəsi üzərində istifadə hüququnun müqavilə üzrə öhdəliklərin icrasını təmin etmək məqsədilə sonrakı girov müqaviləsinə əsasən Bankın xeyrinə girova qoyulması.
4. "Səba"ASC-nin yeni törəmə şirkətinin təsis edilməsi.
5. "Səba"ASC-nin Direktorlar Şurası barədə.
6. Digər məsələlər.

Cəmiyyətin bütün səhmdarlarına izah olunur ki, səhmdarlar Ümumi Yığıncağın gündəliyinin layihəsinə dair təkliflər vermək və gündəliyə daxil edilmiş bütün məsələlər üzrə müvafiq sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq hüququna malikdirlər.

Gündəliklə əlaqədar münasibət bildirilməsi üçün əlaqə telefonu: (+994 12) 448-16-01;

Ümumi Yığıncağın keçiriləcəyi ünvan: Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1

*İdarə Heyəti*


# Beynəlxalq aləm

## İnteqrasiyanın 25-ci ili: Rusiya və Belarus məqsədlərinin bir addımlığında

Xəbər verildiyi kimi, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Belarus lideri Aleksandr Lukaşenko sentyabrın 9-da Kremldə danışıqlar zamanı tərəflərin son 3 il müzakirə etdikləri 28 bənddən ibarət İttifaq Proqramını razılaşmışlar. Bununla Minsk və Moskva 90-cı illərin ortalarından iqtisadi və siyasi sahələrdə daha sıx münasibətlər qurmaq istəklərinə nail olmuşlar.



© Mikhail Voskresensky/Sputnik/AP Photo/picture alliance

Aleksandr Lukaşenko hələ Belarus Prezidenti seçilməzdən əvvəl seçki kampaniyasında Rusiya ilə inteqrasiyanın özünün gələcək fəaliyyətində prioritet istiqamət olacağını elan etmişdir. Onun seçkilərdə qələbəsindən az sonra - 1995-ci ilin yanvarında tərəflər "Gömrük İttifaqı haqqında saziş", ayyarımdan sonra isə 10 il müddətinə "Dostluq, mehriban qonşuluq və əməkdaşlıq haqqında" müqavilə imzaladılar. Əksər müşahidəçilər 2 aprel 1996-cı il tarixdə Boris Yeltsin və Aleksandr Lukaşenkonun Rusiya və Belarus Birliyinin yaradılmasına dair müqavilənin imzalanmasını inteqrasiya layihəsinin formal başlanğıcı hesab etdilər.

Sonra Minsk və Moskva bu istiqamətdə daha bir sıra razılaşmalara nail oldular. Onlardan ən əsası 8 dekabr 1999-cu il tarixli ittifaq dövlətinin yaradılması haqqında müqavilə idi. Müqavilə əvvəlki sənədlərdən fərqli olaraq kifayət qədər sıx siyasi inteqrasiyanı, o cümlədən ümumi ikipalatalı parlamentin, Konstitusiyanın, məhkəmənin, Hesablama Palatasının və vahid emissiya mərkəzi olan valyutanın yaradılmasını nəzərdə tuturdu. Amma 20 ildən artıq bu planlar elə kağız üzərində qaldı.

"İttifaq dövləti haqqında müqavilə iki ölkənin tam birləşməsi yolunda müvəqqəti konstruksiya kimi nəzərdə tutulmuşdu. 1999-cu ildə Lukaşenko həmin birləşmiş dövlətin başında olmağı düşünürdü. Lakin sonra Rusiyada Vladimir Putin hakimiyyətə gəldi və Lukaşenko qapının bağlandığını anladı, inteqrasiya məsələsində soyudu", - deyə Minskin ozamankı inteqrasiya coşğusunu Belarus politoloqu Valeriy Karbaleviç belə izah edir.

Bununla yanaşı, Avropa Transformasiyası Mərkəzinin direktoru Andrey Yeqorov hesab edir ki, Belarus və Rusiyanın yaxınlaşmasından danışarkən bütün inteqrasiya birliklərini - nəinki ittifaq dövləti, həm də MDB və Avrasiya İqtisadi İttifaqını (AİI) nəzərə almaq lazımdır. Ekspertin fikrincə, iqtisadi mənada AİI ən vacib qurumdur, orada başqa müddəaların həyata keçirilməsi ilə bağlı problemlər olsa da, gömrük inteqrasiyasında açıq-aydın işləyən struktur var: "İttifaq dövlətində isə vəziyyət daha mürəkkəbdir. Çünki formal olaraq heç nə işləmir, siyasi mənada bu, bir-birindən qarşılıqlı fayda götürmək üsulu olaraq qalır".

Belarus iqtisadiyyatı üçün fayda baxımından ekspertlər bütün inteqrasiya təsisatlarını müsbət qiymətləndirirlər. "SSRİ-nin dağılmasından sonra Belarus tezliklə başa düşdü ki, Rusiyadan asılılıq (yalnız neft və qaz sarıdan deyil) sənayenin bərpası üçün xeyli kritikdir və buna görə də Minsk iqtisadiyyatını qorumaq üçün ikitərəfli münasibətlər qurmuş, habelə MDB və Gömrük ittifaqı kimi regional təşəbbüslərdə fəal iştirak etmişdir", - deyə Belarus İqtisadi Tədqiqat və Təhsil Mərkəzinin (BEROC) direktoru Katerina Bornukova bildirir.

İqtisadçı hesab edir ki, Rusiya ilə həmişə xüsusi münasibətlər olub: "Belarus Rusiya bazarına preferensial (güzəştli) giriş əldə edib, neft və qazın güzəştli qiyməti barədə ayrıca razılığa gəlib. Amma hər il razılığa gəlmək lazım idi və bu rahatsızlıq doğururdu. Buna görə Minsk üçün də münasibətləri təsisatlaşdırmaq və bazarın necə işlədiyini təsvir edən müqavilə çərçivəsində yerləşdirmək faydalı idi".

Politoloq Karbaleviç isə deyir ki, hər iki ölkənin inteqrasiyası Lukaşenko hakimiyyətinə təhlükə yaratmayan istiqamətlərdə uğurla gedib: "Sosial məsələlərdə bu, pis deyil: belaruslar Rusiyada, rusiyalılar isə Belarusda müəyyən hüquq və güzəştlərdən istifadə edir, belaruslara Rusiyada qeydiyyatdan keçmək lazım deyil. Üstəlik, ittifaq dövləti və onun ideologiyası Lukaşenkoya 20 il ərzində Rusiyadan müxtəlif imtiyazlar almağa imkan verir".

Katerina Bornukovanın fikrincə, ittifaq dövlətini AİI-nin həqiqətən işlək qurumu hesab etmək olar ki, bu da belaruslara bir çox imkanlar verir. Bundan əlavə, pandemiyaya qədər iki olkə vətəndaşlarının sərbəst hərəkəti qeyd olunmalıdır: "Ancaq hətta iqtisadi baxımdan da bütün inteqrasiya razılaşmaları yerinə yetirilmir. AİI haqqında eyni sazişdə bütün bazarların vahid olması nəzərdə tutulur. Lakin bunlar həyata keçirilməyib. Hətta əmtəə bazarında hələ də texniki tənzimləmələr baxımından razılaşdırılmamış məsələlər var. Əslində, bir çox sahələrdə vahid bazar yoxdur".

Əgər gələcək haqda danışsaq, Minsk və Moskvanın artıq üç ildir müzakirə etdikləri dərin inteqrasiya haqqında hər hansı məlumat, demək olar ki, məlum deyil - "yol xəritələri" və ya indi deyildiyi kimi, ittifaq proqramları rəsmi şəkildə açıqlanmayıb. Buna baxmayaraq, iqtisadçı Bornukova gələcək inteqrasiyanın dərinləşməsinin məhz iqtisadiyyata aid olacağını proqnozlaşdırır: "Unifikasiyanın hələ mövcud olmadığı ayrı-ayrı sektor və bazarlar üzrə dəyişikliklər olacaq. Vergi və gömrük sistemlərinin şəffaflığını artıran addımlar da atıla bilər".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## İstanbul Avropanın ən yaxşı şəhəridir

İstanbul "Travel and Leisure" jurnalının versiyasına görə, Avropanın ən yaxşı şəhərlərinin reytinqində birinci yeri tutub. Bu barədə İstanbulun valisi Əli Yerlikaya sosial şəbəkədə məlumat verib.



"İstanbul Avropa şəhərlərinin ən yaxşısıdır. İstanbul Avropada 1 nömrəli şəhərdir. Sorğunun nəticələrinə görə, minlərlə insan İstanbulu öz favoriti seçmişdir. Biz hamımız bununla fəxr edirik", - deyə Yerlikaya qeyd edib.

'Travel and Leisure' nəşrinin 11 yanvar-11 may tarixlərində keçirdiyi illik sorğunun nəticələrinə əsasən, İstanbul 91,32 xalla Avropada birinci yeri tutmuşdur.

## İsraildə Netanyahunun işi üzrə məhkəmə prosesi bərpa olunub



İsraildə 3 aylıq fasilədən sonra sabiq Baş nazir Benyamin Netanyahuya qarşı korrupsiya ilə bağlı məhkəmə prosesləri yenidən gündəmə gəlib. Bu barədə "Anadolu" agentliyi xəbər verib.

İclas Qüds Regional Məhkəməsində keçirilib. Netanyahunun özü iclasda iştirak etməyib.

Bu, Netanyahunun Baş nazir kürsüsünü itirdikdən sonra təşkil edilən ilk məhkəmə iclasıdır. Hakimlər "Walla News" xəbər portalının keçmiş baş direktoru İlan İyeşuanın ifadələrini nəzərdən keçiriblər.

İsrailin Baş prokuroru Avihay Mandelblit 2019-cu il noyabrın 21-də Netanyahuya qarşı korrupsiya ittihamı ilə 3 cinayət işinin başlanmasını tələb edib.

Netanyahunun işi üzrə məhkəmənin ilk iclası 24 may 2020-ci il tarixdə, ikinci iclası 2021-ci il fevralın 8-də keçirilib.

## Yaponiya Rusiyanı hava sərhədlərini pozmaqda ittiham edib



Rəsmi Tokio Yaponiyanın hava məkanının Rusiyanın An-26 təyyarəsi tərəfindən pozulması ilə bağlı diplomatik kanallar vasitəsilə Moskvaya etiraz göndərib. Bu barədə Nazirlər Kabinetinin baş katibi Katsunobu Katoya istinadla TASS agentliyi xəbər verir.

"Xarici İşlər Nazirliyi diplomatik kanallarla Rusiya tərəfinə etiraz göndərib və bu cür insidentlərin təkrarlanmasına yol verilməməsini tələb edib", - deyə Kato vurğulayıb. Onun dediyinə görə, indi Yaponiya baş verənləri təhlil edir və Rusiya təyyarəsinin hansı məqsədlə iki dəfə səmada olduğunu müəyyənləşdirməyə çalışır.

Xatırladaq ki, sentyabrın 12-də Yaponiya Müdafiə Nazirliyi bəyan edib ki, Rusiyanın An-26 təyyarəsi ölkənin şimalında yerləşən Hokkaydo adası yaxınlığında hava məkanını iki dəfə pozub. Moskvanın bu ittihamlara reaksiyası yoxdur.

## Taliblər uşaq oğrularını məhv etdilər

"Taliban" hərəkatının Təhlükəsizlik Xidməti Məzari-Şərifdə uşaq qaçıran dəstənin məhv edildiyini və yetkinlik yaşına çatmayan 4 uşağın azadlığa buraxıldığını bildirib. Bu barədə INTERFAX.RU portalı xəbər verib.



Taliblər əməliyyatı bazar ertəsi gecəsində keçiriblər. Onların dediyinə görə, oğruların dəstəsində dörd əfqan kişi və bir özbək qadın var idi. Onların hamısı öldürülüb.

Bundan əvvəl yerli KİV Məzari-Şərifdə ağır döyüş baş verdiyini bildirmişdi. Jurnalistlər güman edirdilər ki, bu, taliblərin digər yaraqlılarla döyüşü, yaxud taliblərin özləri arasında silahlı toqquşması ola bilərdi.



## Polşa Prezidenti Angela Merkellə görüşdən imtina edib

Polşa Prezidenti Ancey Dudanın davranışı Almaniyanın kansleri Angela Merkel üçün təhqiramiz olub. Bu barədə ekspert Filipp Fritsə istinadən "Alman dalğası" radiostansiyası xəbər verir.

Fritsin dediyinə görə, Duda Merkellə Varşavada görüşməkdən imtina edib və bununla da AFR-dən olan həmkarını təhqir edib. Onların görüşü əvvəlcədən planlaşdırılırdı. Polşa KİV Merkelin səfərindən bir neçə gün əvvəl Duda ilə görüşün baş tutmayacağını bildirmişdi, çünki Prezident Katovitsedə anım tədbirlərinə baş çəkməli idi.

Almaniya KİV yazır ki, Baş nazir Mateuş Moravetski Lazenki parkında Merkelə gül dəstəsi verib. Lakin bu, heç nəyi dəyişmir, çünki protokol üzrə dövlətdə birinci şəxs olan Prezident Duda Merkeli salamlamalı idi.

# COVID-19 vaksin və ya immunitet sertifikatının "CheckApp" mobil tətbiqi vasitəsilə çevik şəkildə yoxlanılması üçün tövsiyələr

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 iyul tarixli 229 nömrəli Qərarının 2.5-5.3-cü yarımbəndinə əsasən yaşı 18-dən yuxarı olan şəxslər ictimai iaşə müəssisələrində, mehmanxanalarda, iri ticarət mərkəzlərində - qapalı məkanda göstərilən xidmətlərdən yalnız COVID-19 vaksin və ya immunitet sertifikatı olduğu halda istifadə edə bilərlər.




Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə nəzərdə tutulan qurum və müəssisələrdə COVID-19 vaksin və ya immunitet sertifikatının yoxlanılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzi (EHİM) tərəfindən "CheckApp" mobil tətbiqi istifadəyə verilib.

Agentliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən xəbərə görə, tətbiq üzərindən vətəndaşın COVID-19 vaksin və ya immunitet sertifikatı aşağıdakı 4 sadə üsuldan biri ilə yoxlanılır:

1. Vətəndaşın COVID-19 vaksin və ya immunitet sertifikatının QR kodunu oxutmaqla;
2. Vətəndaşın FİN-i və doğum ili üzrə axtarış etməklə;
3. Vətəndaşın şəxsiyyət vəsiqəsinin seriya nömrəsi və doğum ili üzrə axtarış etməklə;
4. Vətəndaşın adı, soyadı, ata adı və doğum ili üzrə axtarış etməklə.

Qeyd edək ki, COVID-19 vaksin və ya immunitet sertifikatının QR kodu üsulu ilə yoxlanılması digərləri ilə müqayisədə ən çevik metod hesab olunur.

Vətəndaşlar qeyd olunan obyektlərə öz COVID-19 vaksin və ya immunitet sertifikatlarındakı QR kodu təqdim edərək daxil olmaqla zamanlarına qənaət edə bilərlər. Bu həm də qeyd olunan obyektlərdə növbələrin yaranmasının da qarşısını almış olur. Vətəndaşlardan COVID-19 vaksin və ya immunitet sertifikatının ən yeni versiyasını "myGov" elektron hökumət portalı və ya mobil tətbiqi, eləcə də "e-TƏBİB" mobil tətbiqi və ya its.gov.az portalı üzərindən yükləmələri xahiş olunur.

Həmçinin "CheckApp" mobil tətbiqi vasitəsilə xarici vətəndaşların da COVID-19 pasportlarını yoxlamaq mümkündür. Yoxlamanı xarici vətəndaşın pasportu və doğum ili vasitəsilə həyata keçirmək olar.




## Son sutkada Azərbaycanda koronavirus infeksiyasına 1157 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 1157 yoluxma faktı qeydə alınıb, 3065 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 31 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 461 min 249 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 412 min 469 nəfər müalicə olunaraq sağalıb, 6 min 134 nəfər vəfat edib. Aktiv xəstə sayı 42 min 646 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 8 min 123, dünənə qədər isə ümumilikdə 4 milyon 661 min 119 test icra olunub.

## Azərbaycanda COVID-19 əleyhinə birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 4 milyon 508 min 115 nəfərdir

Sentyabrın 13-də Azərbaycanda 1266 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 1077, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 189 nəfər təşkil edib.

Azərbaycanda dünənə qədər vurulan vaksinlərin ümumi sayı 7 milyon 611 min 206, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 4 milyon 508 min 115, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 3 milyon 103 min 91 nəfər təşkil edir.




## Cari ilin yanvar-avqust aylarında 1616 cinayət işi prokurorluq orqanlarında icraata qəbul olunub

Cari ilin yanvar-avqust aylarında 1616 cinayət işi prokurorluq orqanlarında icraata qəbul olunub. Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Qeyd edək ki, prokurorluq orqanlarının fəaliyyətini əks etdirən rəqəmlər barədə Baş Prokurorluq tərəfindən kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə #gununreqemi həştəqi ilə məlumatlar yerləşdirilir. Baş Prokurorluğun sosial şəbəkələrdəki səhifələrini izləməklə prokurorluq orqanlarının fəaliyyətindəki yeniliklərdən xəbərdar olmaq mümkündür.


## Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti ofis və digər texniki avadanlıqların satın alınması məqsədilə *açıq tender elan edir*

LOT 1 - Ofis və digər texniki avadanlıqların satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak haqqının ödənilməsi yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək istəyənlər müsabiqəyə daxil olduqdan sonra "Asan ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə LOT üzrə 200 (iki yüz) manat məbləğində iştirak haqqını ödəyərək Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər. İştirak haqqı heç bir halda geri qaytarılmır.

**İştirak haqqı: 200 manat.**

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın nümayəndəsi: İnarə Kazımova, tel: 012 404-46-68.

**Bank rekvizitləri:**
**AR MN Dövlət Maliyyə Nəzarəti Xidməti**
**VÖEN:1401559181**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Hesablaşma hesabı: AZ98CTRE00000000000002748501**
**Fond 7**
**Büdcə təsnifat kodu: 142330**
**S.W.I.F.T. CTREAZ22**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*
2. *Tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
3. *Tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
5. *Son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti (dövriyyəsi) haqqında bank arayışı;*
8. *İddiaçının analoji işlərdə təcrübəsi, maddi-texniki və kadr imkanları haqqında rəsmi məlumat;*
9. *İddiaçının müvafiq sahədə korporativ müştəriləri və son 3 (üç) il üzrə iş təcrübəsini (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu daxil olmaqla) əks etdirən məlumatlar;*
10. *İddiaçının son üç ildə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyinə görə məhkəmə araşdırmalarına cəlb olunub-olunmaması barədə rəsmi məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **05 oktyabr 2021-ci il saat 12:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **13 oktyabr 2021-ci il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidir. İddiaçıların təklifləri **14 oktyabr 2021-ci il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 10 avqust 2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet portalı vasitəsilə "Bakı Metropoliteni" QSC-nin "N.Nərimanov " elektrik deposunda 3 saylı qanovda və Elektrik Mühərriklərinin Əsaslı Təmir sexində alüminium profildən və polkirbinatdan pəncərənin, sexdə alüminium profildən qapıların və pəncərələrin hazırlanıb quraşdırılması işlərinin satın alınmasına dair keçirilmiş açıq tenderdə (Elektron) "Nimex" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilatla 27 196,35 (iyirmi yeddi min yüz doxsan altı manat 35 qəpik) ƏDV daxil məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Lənkəran Dövlət Universiteti tərəfindən 27 avqust 2021-ci il tarixdə www.etender.gov.az portalında və 28 avqust 2021-ci il tarixdə "Azərbaycan" qəzetində dərc olunmuş İnventarın alınması üzrə Kotirovka sorğusunda təklif vermiş iddiaçıların sayı üçdən az olduğu üçün "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 11.1. bəndinə əsasən davamından imtina edilmişdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 15 aprel və 26 may 2021-ci il tarixli nömrələrində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi tərəfindən daxili turizmin təbliğat kampaniyası üçün kreativ konsepsiyanın hazırlanması xidmətinin satın alınması ilə əlaqədar dərc edilmiş elektron açıq tenderdə "Reprise Digital Azerbaijan" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan olunmuşdur.

Qalib şirkətlə 09 sentyabr 2021-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi keçmiş iş yoldaşları Rasim Sadıqova anası
**ALİYƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Aparat rəhbəri
**ALİM SÜLEYMANOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyliyə anası
**SVETLANA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti AMEA-nın akademik-katibi, akademik Arif Həşimova bacısı
**SÜSƏN ƏBİLOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları Kəmalə Hüseynovaya anası
**ŞAXANIM İSMAYILOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri Himalay Məmişova əzizi
**BRİLYANT MƏNAFOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Sevinc İsmayılovaya atası
**MƏMMƏD İSMAYILOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyliyə anası
**SVETLANA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının kollektivi Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyliyə anası
**SVETLANA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azneftemaş" ASC-nin prezidenti Şahmar Vəliyev Arif Rəhimova anası
**NADYA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qafqaz Müsəlmanları İdarəsinin rəhbərliyi və idarənin kollektivi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Aparat rəhbəri
**ALİM SÜLEYMANOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"Bakı Neft Maşınqayırma Zavodu" ASC-nin sədri Eldar Vəliyev Arif Rəhimova anası
**NADYA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əməkdar elm xadimi, professor Vaqif Şadlinski və Anar Abdullayev Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyliyə anası
**SVETLANA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Şəhər Səbail Rayon Məhkəməsinin kollektivi məhkəmənin hakimi Günel Səmədovaya atası
**KAMİL MÜƏLLİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Tibb Universitetinin Həmkarlar İttifaqı Komitəsi universitetin rektoru, professor Gəray Gəraybəyliyə anası
**SVETLANA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4953
Sifariş 1696
Qiyməti 40 qəpik